RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 269 (8862) ŞƏNBƏ, 11 dekabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Azərbaycan Qarabağ və Şərqi Zəngəzurda yeni həyat qurur

## Ermənistanın göz yaşlarına inananların sayı isə getdikcə azalır

Ermənistan 44 günlük Vətən müharibəsindəki qələbəmizdən sonra hələ də özünə gələ bilmir. Orada siyasi partiyalar və politoloqlar iki cəbhəyə bölünüb. Tərəflər bir-birini erməni xalqının milli maraqlarına xəyanət etməkdə günahlandırır, ölkədəki xaotik durumu dərinləşdirirlər.

Ermənilər siyasi vəziyyəti öz xeyirlərinə dəyişmək və Azərbaycana qarşı diplomatik həmlə etmək istəsələr də, heç nə alınmır. Əksinə, Prezident İlham Əliyevin apardığı siyasət sayəsində hər dəfə diplomatik məğlubiyyətlərə uğrayırlar.

Qonşu ölkə Soçi görüşü ərəfəsində məsələni ciddi qoyacağını, xüsusilə Zəngəzur dəhlizi məsələsinin müzakirəsinə yol verməyəcəyini desə də, nəticə göz qabağındadır. Rusiya Federasiyasının Prezidenti açıq şəkildə dedi ki, regionda sülh və barışın olması üçün bütün kommunikasiyalar açılmalı, sərhədlərin delimitasiyası və demarkasiyası həyata keçirilməlidir. Bu isə o demək idi ki, "Moskva göz yaşlarına inanmır".

Prezident İlham Əliyevin bu il dekabrın 6-da Quba rayonuna səfəri zamanı yerli sakinlərlə görüşündə verdiyi bəyanat əslində İrəvanda başlanan yeni diplomatik oyunlara və siyasi bəyanatlara qarşı Ermənistana və onun havadarlarına edilən qəti xəbərdarlıq idi. Dövlət başçısı nə istədiyini açıq şəkildə bildirmişdir: "...Amma deyirəm ki, bizə tarix versinlər Zəngəzur dəhlizi nə vaxt açılacaq və belə olan halda heç bir problem olmayacaq". Yəni əgər konstruktiv danışıqlardan yayınıb 2020-ci il noyabrın 10-da Zəngəzur dəhlizinin açılması barədə üzərlərinə götürdükləri öhdəliyi yerinə yetirməsələr, alternativi hərbi yol olacaq.

Cənub qonşumuz olan İranın da yeni reallıqları qəbul etməsi Ermənistanı çıxılmaz vəziyyətdə qoyub. Artıq İran da Zəngəzur dəhlizinin açılmasına və işğaldan azad edilən ərazilərdə işləməyə maraq göstərir. Xüsusilə Azərbaycan və İran arasında Türkmənistan qazının nəqli barədə iki ölkənin razılığa gəlməsi Ermənistan üçün soyuq duş effekti yaradıb. Bununla da Ermənistanın İrana bağladığı ümidləri boşa çıxıb. Səbəbsiz deyil. Çünki Rusiya və Türkiyədən sonra İran, Çin və Avropa ölkələri də Zəngəzur dəhlizinin açılmasında maraqlı olduqlarını bildiriblər.

Əli hər yerdən üzülən ermənilərin ümidi dekabrın 15-də Brüsseldə keçiriləcək "Şərq Tərəfdaşlığı" ölkələrinin sammitinə qalıb. Sammitdən öncə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın əlimyandıda Fransaya səfər etmək istəməsi də bununla bağlıdır. Amma Nikol Paşinyanın "biz dünyanın böyük dövlətlərini bezdirmişik və heç kəs bizimlə maraqlanmır" deməsi elə Fransaya da aiddir. Fransız siyasətçilər qarşıdan gələn seçkilərdə ermənilərin beş-üç səsini qazanmaq, daha doğrusu, buradakı erməni iş adamlarından bir qədər vəsait qoparmaq üçün qulağa xoş gələn bəyanatlar verməkdən başqa heç nə etmirlər. Əksinə, Fransanın ciddi biznes dairələri Azərbaycanla iş görməkdə, xüsusilə işğaldan azad edilən ərazilərdə çalışmaq istədiklərini açıq şəkildə bəyan edirlər. Böyük maraqlar fonunda Fransada "kiçik bacı"nın fəryadını eşidən yoxdur, necə ki, "böyük qardaş" da erməni göz yaşlarına əhəmiyyət vermir.

Ardı 4-cü səh.

## İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikasının Ermənistanın işğalından azad edilən ərazilərinin bərpası, milli iqtisadiyyata sürətli inteqrasiyası, dayanıqlı inkişafının təmin olunması, orada ən müasir infrastrukturun qurulması, mədəni-tarixi abidələrin bərpası və layiqli yaşayış şəraitinin yaradılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu çərçivədə icra olunan layihələr həmin ərazilərin qısa müddət ərzində sülh və əməkdaşlıq bölgəsinə çevrilməsində və iqtisadi inkişafında mühüm rol oynayacaqdır.

Sözügedən ərazilərdə zəngin resurs və infrastruktur potensialından səmərəli istifadə, dövlət-özəl sektor tərəfdaşlığı və ən əlverişli biznes mühiti əsasında iqtisadi fəaliyyətin canlandırılması və dayanıqlı məskunlaşmanın təmin olunması ölkənin uzunmüddətli inkişaf prioritetləri ilə vəhdətdə olan tədbirlərlə dəstəklənməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, işğaldan azad edilmiş ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsi və investisiya cəlbediciliyinin artırılması, müasir və effektiv istehsal, ticarət və xidmət infrastrukturunun yaradılması, innovativ texnologiyaların tətbiqi, sənaye potensialının reallaşdırılması, optimal güzəştlərin və stimullaşdırıcı mexanizmlərin hazırlanması və sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün əlverişli şərait yaradılması məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1. Aşağıdakı istiqamətlərdə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

1.1. işğaldan azad edilmiş ərazilərdə iqtisadi resursların və əmək resurslarının səmərəli idarə olunması, onların emal sənayesinin və xidmət infrastrukturunun yaradılmasına yönəldilməsi məqsədilə vergi güzəştlərinin, sosial sığorta və digər güzəştlərin tətbiqi;

1.2. işğaldan azad edilmiş ərazilərdə özəl təşəbbüslərin stimullaşdırılması, investisiyaların təşviqi mexanizmlərinin təkmilləşdirilməsi, həmin ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlar üçün xammal və materialların idxalı ilə bağlı gömrük və vergi güzəştlərinin müəyyən edilməsi;

1.3. işğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlər (elektrik enerjisi, təbii qaz və su istehlakı) üzrə güzəştlərin müəyyən edilməsi;

1.4. müasir bilik və bacarıqlara malik mütəxəssislərin işğaldan azad edilmiş ərazilərə cəlb edilməsi, habelə əmək miqrasiyası kvotasının müəyyən edilməsi və iş icazələrinin verilməsi prosedurunun təkmilləşdirilməsi;

1.5. işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi və bu istiqamətdə zəruri dövlət dəstəyinin gücləndirilməsi;

1.6. işğaldan azad edilmiş ərazilərdə ekoloji təmiz texnologiyaları tətbiq edən, "yaşıl artım" yaradan və bərpa olunan enerji mənbələrindən istifadə edən investorların dəstəklənməsi;

1.7. işğaldan azad edilmiş ərazilərdə yaşayış massivlərinin inşası ilə bağlı dövlət-özəl sektor tərəfdaşlığının inkişafı.

2. Bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2021-ci il*

## Media islahatları yeni mərhələyə qədəm qoyur



Özünəməxsus inkişaf yolu keçmiş Azərbaycan mediası ölkəmizdə və dünyada baş verən hadisələrlə bağlı cəmiyyətin məlumatlandırılması, xalqımızın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü fəaliyyət göstərib.

Bununla yanaşı, Azərbaycanda cəmiyyət həyatının hər bir sahəsini əhatə edən köklü islahatların həyata keçirildiyi, habelə bütün dünyanı əhatə edən vahid informasiya məkanında yeniliklərin intensiv xarakter aldığı müasir dövrdə media sahəsində keyfiyyət dəyişikliklərinə ehtiyac duyulurdu.

Ardı 3-cü səh.

## Şəhid ailələrinə və müharibə veteranlarına qayğı göstərmək dövlətin prioritetidir

Torpaqlarımızın azadlığı uğrunda canını fəda etmiş şəhidlərin ailələrinə, əlillərə və müharibə veteranlarına yüksək diqqət və qayğı hər zaman dövlətimizin əsas prioriteti olub.

Birbaşa Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və nəzarətində olan bu məsələ ilə bağlı ən ali səviyyədə müvafiq göstərişlər verilir və bu kateqoriyadan olan insanların problemlərinin həlli istiqamətində mühüm tədbirlər həyata keçirilir.

Bu gün şəhid ailələrinə, müharibə əlillərinə və veteranlarına göstərilən hərtərəfli qayğı, onların sosial ehtiyaclarının dövlət tərəfindən ödənilməsi bu kateqoriyadan olan vətəndaşlarımızın daim diqqətdə saxlanıldığının bariz göstəricisidir.

İlham ƏLİYEV: "Qəhrəman döyüşçülərimiz gələcəkdə də daim mənim nəzarətim altında olacaqlar"

Vətən müharibəsi xalqımızın parlaq qələbəsi ilə yekunlaşdıqdan cəmi bir gün sonra Prezident İlham Əliyev ilk olaraq yaralı hərbçilərimizlə görüşmüş, zəfər sevincini onlarla bölüşmüşdü.

Ardı 4-cü səh.

## Kəlbəcər istiqamətində Ermənistanın növbəti təxribatının qarşısı alınıb

Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Basarkeçər rayonu ərazisində əlavə canlı qüvvə və döyüş texnikası cəmləşdirməklə növbəti təxribata əl atıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qarşı tərəf dekabrın 10-u saat 12:00-dan etibarən Kəlbəcər rayonu ərazisində yerləşən Azərbaycan Ordusunun mövqelərini atəş altında saxlamağa cəhd edib.

Bölmələrimiz tərəfindən qısa müddət ərzində görülən cavab tədbirləri nəticəsində qarşı tərəf susdurularaq, onun təxribat xarakterli fəaliyyətləri dayandırılıb.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

## Torpaq işləyəni ruzisiz qoymur

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramları bölgələrimizin hərtərəfli inkişafına meydan açmışdır. Dinamik xarakter almış iqtisadi irəliləyiş bu il daha ciddi uğurlarla əlamətdar olmuşdur. Bu, Göygöl rayonunun timsalında da aydın görünür.

Bax: səh. 6



## Pandemiyanın gedişatı dəyişə bilər



Elm adamlarının pandemiya davam etdikcə koronavirusun yeni mutasiyalarının ortaya çıxacağı ilə bağlı fikirləri özünü doğruldur.

COVID-19 pandemiyasına səbəb olan SARS-CoV-2-nin "Delta" variantından bir neçə ay sonra aşkarlanmış "Omikron"la bağlı ətraflı məlumatlar əldə edilməmiş bu ştamın yeni mutasiyası ortaya çıxıb. Cənubi Afrika, Avstraliya və Kanadada aşkarlanmış "Omikron"a bənzər mutasiyanın daha geniş ərazilərdə yayıla bilməsi mümkün sayılır.

### "Omikron"un "gizli" versiyası

"Omikron"a bənzər mutasiyanı digər variantlardan fərqləndirən ayrıca bir xüsusiyyət yoxdur. Buna görə də alimlər yeni mutasiyanı "Omikron"un "gizli" versiyası hesab edirlər. "Gizli" variantın PCR testlərində aşkarlanması çətin olduğu üçün onun yayılma arealını izləmək də asan olmayacaq. "Omikron"la onun "gizli" versiyası oxşar mutasiyalar dəstinə malikdir. Buna əsaslanaraq onun nəzəri cəhətdən "Omikron" kimi daha yoluxucu ola biləcəyi deyilir.

"Gizli "Omikron"da standart "Omikron"da olan bir çox ortaq mutasiyalar olsa da, o, xüsusi genetik dəyişikliyə malik deyil. Variant hələ də bütün adi testlərdə koronavirus kimi aşkar edilir. O, genomik test vasitəsilə "Omikron" variantı kimi müəyyən edilə bilər. Yeni variantın yoluxuculuğu və peyvəndlərə mümkün müqaviməti barədə dəqiq məlumat yoxdur. Tədqiqatçılar deyirlər ki, "Omikron"un yeni formasının standart "Omikron" kimi yayılıb-yayılmayacağını bilmək hələ tezdir. Ancaq "gizli" versiyanın fərqli davrana biləcəyi də istisna edilmir.

Ardı 5-ci səh.

## Ermənistanda vəziyyət qarışır

### Erməni lobbisinin regionda sülhə xələl gətirən fəaliyyəti artıq İrəvanın özündə də tənqid hədəfidir

Bu günlərdə Ermənistanın 9 vilayətində, 36 icmasında yerli idarəetmə orqanlarına seçkilər keçirilib. 36 icmadan 16-sında Ermənistanın baş naziri Nikol Paşinyanın "Vətəndaş müqaviləsi" partiyası 50 faizdən çox səs toplayıb. Qalan yerləri isə ya müxaliflər, ya da müstəqil namizədlər tutub. Elə bu fonda Ermənistanda siyasi ziddiyyətlər yenidən gərginləşib.

Yayılan məlumata əsasən, Ermənistanda Vardenis şəhərinin sakinləri yerli özünüidarəetmə orqanlarına keçirilən son seçkilərin nəticələrinə etiraz olaraq və "Birləşmiş Vardenis" blokunun lideri Aram Arutyunyanın saxlanması ilə bağlı aksiya keçiriblər.

Ardı 8-ci səh.

# Milli Məclisin Sədri Sahibə Qafarova İslam Əməkdaşlığı Təşkilatı Parlament İttifaqının XVI Konfransında çıxış edib

Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti İslam Əməkdaşlığı Təşkilatı Parlament İttifaqının (İƏT Pİ) XVI Konfransında iştirak etmək üçün İstanbulda səfərdədir.







Dekabrın 10-da konfransın açılış mərasimi olub. Tədbirdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, konfransda Milli Məclisin Sədri Sahibə Qafarova tədbir iştirakçılarını Azərbaycan Milli Məclisi adından salamlayaraq Türkiyənin sədrliyinin İƏT Pİ-nin güclənməsinə töhfə verəcəyinə əmin olduğunu deyib.

Spiker diqqətə çatdırıb ki, Azərbaycan İslam dövlətləri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığa önəm verir. O bildirib ki, biz iki gün əvvəl Azərbaycanın İƏT-ə üzvlüyünün 30-cu ildönümünü qeyd etdik. Beynəlxalq təşkilatlar çərçivəsində müsəlman ölkələrinə ardıcıl dəstəklə yanaşı, Azərbaycanda keçirilən çoxsaylı tədbirlərlə də İslam həmrəyliyinin gücləndirilməsinə öz töhfəmizi veririk. Hesab edirəm ki, parlament ölçüsü getdikcə daha böyük əhəmiyyət kəsb etməyə başlayır və bu, ölkələrimiz arasında münasibətləri daha da dərinləşdirəcək.

İslamofobiyanın bu gün dünyada ən ciddi təhlükələrdən biri olduğunu diqqətə çatdıran Milli Məclisin Sədri bildirib ki, Azərbaycan bu tendensiyanı qəti şəkildə pisləyir və ona qarşı mübarizə aparmağa çağırır. Bu baxımdan İslam Əməkdaşlığı Təşkilatının qardaş Pakistanın təşəbbüsü ilə 15 Martın Beynəlxalq İslamofobiya ilə Mübarizə Günü kimi qeyd edilməsi qərarı çox müsbət qarşılanır. Hesab edirəm ki, İslam dünyasının qarşısında dayanan problemlərin öhdəsindən gəlmək üçün daha güclü həmrəyliyə, dialoqa və əməkdaşlığa ehtiyac var.

Sahibə Qafarova bu sessiyanın mövzusuna uyğun olaraq, Fələstin, Əfqanıstan və miqrasiya məsələlərinə toxunaraq deyib ki, Azərbaycan ardıcıl olaraq Fələstin-İsrail münaqişəsinin Şərqi Qüds Fələstin dövlətinin paytaxtı olmaqla iki dövlət prinsipi əsasında sülh yolu ilə həllini dəstəkləyir. Bu mövqe beynəlxalq təşkilatlar çərçivəsində də birmənalı şəkildə ifadə olunub.

Milli Məclisin Sədri Əfqanıstanda sülh və sabitlik mövzusunun daha geniş region üçün potensial təsirləri olduğunu qeyd edərək, Əfqanıstandakı vəziyyətin humanitar nəticələrinin aradan qaldırılmasının son dərəcə vacib olduğunu diqqətə çatdırıb. Bildirib ki, beynəlxalq ictimaiyyət miqrasiya məsələsini daha geniş perspektivdən nəzərdən keçirməli və problemin kökündə dayanan səbəbləri aradan qaldırmalıdır. Miqrasiya barədə danışarkən təxminən on ildir 5 milyona yaxın qaçqına evsahibliyi edən Türkiyənin səylərini yada salmamaq mümkün deyil. Təəssüf ki, bu səylər layiq olduğu yüksək qiyməti və dəstəyi almayıb.

"Azərbaycan özü də məcburi köçkün problemi ilə üzləşib. Bildiyiniz kimi, Ermənistan 30 ilə yaxın Azərbaycan ərazisinin 20 faizə yaxınını işğal altında saxlayıb. Ermənistanın bu torpaqlarda etnik təmizləmə aparması nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib.

İşğal zamanı Ermənistan qəsdən bütün şəhər və kəndlərimizi yer üzündən silib, Azərbaycanın bütün tarixi, mədəni və dini abidələrini vandalizmə məruz qoyub. Ermənistan bütün müsəlmanlara qarşı tam hörmətsizlik və nifrət zəminində məscidlərimizi dağıdıb, təhqir edib və onlardan donuz və inək saxlanılan tövlə kimi istifadə olunub. Bu ərazilərdəki 67 məsciddən 65-i dağıdılıb, qalan 2 məscidə isə ciddi ziyan vurulub. Hətta bu ərazilərdəki qəbiristanlıqlarımız da vandalizmə məruz qalıb", - deyə Milli Məclisin Sədri vurğulayıb.

1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş 4 qətnamə, Qoşulmama Hərəkatının, İslam Əməkdaşlığı Təşkilatının, ATƏT-in və digər müvafiq beynəlxalq təşkilatların qətnamə və qərarları Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edib. Lakin təəssüf ki, Ermənistan onların heç birinə məhəl qoymayıb.

Ermənistanın hərbi təxribatları nəticəsində başlayan 44 günlük müharibə Azərbaycanın tam Qələbəsi və 2020-ci il noyabrın 10-da Ermənistanın kapitulyasiya aktını imzalaması ilə nəticələndi. Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının qətnamələrini, beynəlxalq hüququn norma və prinsiplərini həyata keçirərək, ərazi bütövlüyünü və tarixi ədaləti bərpa edib.

Milli Məclisin Sədri müharibənin ilk günlərindən Azərbaycana siyasi dəstəyini ifadə edən qardaş Türkiyə və Pakistana minnətdarlığını bildirib, həmçinin İƏT Parlament İttifaqına və Baş katib Muhammed Xurayçi Niyassa Azərbaycanın haqq işini dəstəklədiklərinə görə təşəkkürünü çatdırıb.

Sahibə Qafarova çıxışının sonunda diqqətə çatdırıb ki, Azərbaycan artıq işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa proqramlarına başlayıb. Bu, 1 milyondan çox vətəndaşımızın öz evlərinə qayıtmasına imkan verəcək. Ermənistanla Azərbaycan arasında suverenliyin və ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında sülh sazişinin imzalanması, həmçinin sərhədlərin delimitasiyası və demarkasiyası regionda münasibətlərin normallaşmasına və kommunikasiyaların bərpasına gətirib çıxaracaq. Lakin Ermənistan öz öhdəliklərini pozmaqdan əl çəkməli, vəziyyəti gərginləşdirən, regionda sülh və sabitlik perspektivlərinə ziyan vuran hərəkətlərə yol verməməlidir.

Sonra konfransda müzakirələr davam etdirilib.

# "Media haqqında" qanun söz və mətbuat azadlığı sahəsində yeni hədəfləri müəyyən edəcək

Dekabrın 10-da Milli Məclisin İnsan hüquqları, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında "Media haqqında" qanun layihəsinin ictimai müzakirəsi keçirilib.



## Sürətlə dəyişən çağırışları tənzimləmək üçün yeni qanuna ehtiyac yaranıb

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" 2021-ci il 12 yanvar tarixli Fərmanın hazırkı dövrdə bu sahədə islahatların yol xəritəsi olduğunu bildirib. Azərbaycan mediasının Vətən müharibəsi və ondan sonrakı dövrdə yüksək vətənpərvərlik və dövlətçilik nümunəsi nümayiş etdirdiyini deyən Milli Məclis Sədrinin birinci müavini "Media haqqında" qanunu bu sahədə keyfiyyətcə yeni islahatlara töhfə olaraq dəyərləndirib.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc müzakirəyə çıxarılan "Media haqqında" qanun layihəsinin söz və mətbuat azadlığı sahəsində dövlətin yeni hədəflərini müəyyənləşdirməyə, onun iqtisadi bazasını, kadr potensialını və peşəkarlıq səviyyəsini artırmağa, KİV sahəsində suverenliyimizi qorumağa xidmət edəcəyini deyib. O, informasiya siyasətinin əhəmiyyətindən danışaraq, dövlət başçısının müharibə dövründə təxminən 30 dəfə müsahibə ilə çıxış etdiyini, bununla düşmənə mənəvi, siyasi, diplomatik zərbələrin endirildiyini vurğulayıb.

Qanun layihəsi barədə fikirlərini açıqlayan Zahid Oruc qeyd edib ki, sənəd hazırlanarkən bu günün reallıqları, kütləvi informasiya vasitələrinin fəaliyyətinin daha səmərəli tənzimlənməsi məsələləri, bu sahədə beynəlxalq təcrübə nəzərə alınıb, bir çox KİV nümayəndələri ilə müzakirələr aparılıb. Layihə dövlət başçısının müvafiq fərmanından sonra yaradılan İşçi Qrupu və Milli Məclisin üzvləri ilə birgə hazırlanıb. Bildirilib ki, media sahəsində sürətlə dəyişən çağırışları və tələbləri tənzimləmək üçün yeni qanuna ehtiyac yaranıb. Bu qanun qəbul edildikdən sonra "KİV haqqında" və bu sahəni tənzimləyən digər qanunlar qüvvədən düşmüş hesab olunacaq.

Diqqətə çatdırılıb ki, yeni qanun media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir. Layihə 9 fəsil 78 maddədən ibarətdir. Qanun Azərbaycan Respublikasının ərazisində təsis olunmuş media subyektlərinə, redaksiyalara, onların məhsullarına, həmçinin ölkə hüdudlarından kənarda olan və fəaliyyəti Azərbaycan ərazisinə və əhalisinə istiqamətlənmiş bütün media subyektlərinə, kənarda yaradılan media məhsullarının yalnız Azərbaycan ərazisində yayılan hissəsinə, habelə jurnalistlərə şamil edilir. Bildirilib ki, qanun layihəsində əsas anlayışların yeni redaksiyada şərhi verilib, media subyektləri, o cümlədən audiovizual media, çap mediası, onlayn media və informasiya agentliklərinin dairəsi, onlara dair tələblər öz əksini tapıb.

Sənəddə media sahəsində fikir müxtəlifliyini və fəaliyyət azadlığını təmin etmək, ölkədə hər kəsin informasiya ilə təmin olunması üçün şərait yaratmaq, medianın inkişafını təşviq etmək, media subyektlərinin və jurnalistlərin fəaliyyətini stimullaşdırmaq, rəqabət mühitini təmin etmək, bərabər fəaliyyət imkanları yaratmaq bu sahədə dövlətin əsas vəzifələri kimi göstərilib.

Qanun layihəsində jurnalistlərin fəaliyyətinə dair məsələlər, o cümlədən Media Reyestrinə daxil edilmiş jurnalistlərə müvafiq vəsiqənin verilməsi, onlara bəzi imtiyazların müəyyənləşdirilməsi, dövlət qurumlarında jurnalistlərin akkreditasiya olunması qaydaları, jurnalistin peşəkar fəaliyyəti üçün şəraitin yaradılması və digər məsələlər müvafiq maddələrdə öz əksini tapıb.

## İnnovativ imkanlardan bəhrələnmək media islahatlarının əsas məqsədlərindəndir

Sonra iclasda çıxış edən qanun layihəsini hazırlayan işçi qrupunun rəhbəri, Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov bildirib ki, ölkə Prezidenti tərəfindən "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərman imzalandıqdan sonra Medianın İnkişafı Agentliyinin yaradılması və "Media haqqında" qanun layihəsinin hazırlanması ilə bağlı işlərə başlanması milli informasiya məkanında davamlı inkişafın dövlət üçün prioritet məsələ olduğunu göstərir. Fərmana uyğun olaraq modernləşmə, rasionallıq, qabaqcıl texnologiyaların geniş tətbiqi və digər mühüm şərtləri özündə birləşdirən innovativ imkanlardan Azərbaycan mediasının daha çox bəhrələnməsini təmin etmək media sahəsində islahatların əsas məqsədlərindəndir. Bununla yanaşı, media sahəsində normativ-hüquqi bazanın yenilənməsi və təkmilləşdirilməsi, bu sahədə institusional quruculuq işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin stimullaşdırılması əsas hədəflər kimi müəyyənləşdirilib.

Əhməd İsmayılov bildirib ki, "Media haqqında" qanun layihəsini hazırlamaq məqsədilə Milli Məclisin üzvlərinin, ekspertlərin, Milli İnkişaf Agentliyinin nümayəndələrinin təmsil olunduğu işçi qrupu yaradılıb. Qanun layihəsinin məqsədi daxili informasiya məkanının təhlükəsizliyinin təmin edilməsi və medianın cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılması yolu ilə yerli medianın inkişafına təkan verməsi, informasiya mühitinin rəqabətliliyinin artırılmasıdır. Qeyd olunub ki, layihəyə daxil edilmiş mütərəqqi normalar sayəsində ölkə mediasında şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinin əsaslarının təmin edilməsi, ictimaiyyət və media arasında qarşılıqlı etimadın gücləndirilməsi mümkün olacaq.

Diqqətə çatdırılıb ki, yeni qanuna media və media subyektləri anlayışları daxil edilib, ilk dəfə olaraq jurnalist anlayışı şərh edilib və yeni layihəyə əsasən, əmək müqaviləsi ilə fəaliyyət göstərən müxbirlərə də jurnalist statusu verilir. Bununla yanaşı, çap mediası, audiovizual və onlayn media subyektlərinin, informasiya agentliklərinin, televiziya və radio yayımı sahəsində fəaliyyət göstərən subyektlərin konkret dairəsi müəyyənləşdirilib. Qeyd olunub ki, layihədə müəllif hüquqlarının qorunması ilə bağlı müddəalar media sahəsində orijinal və yenilikçi ideyaların təbliğini dəstəkləyir, başqa media subyekti və jurnalistin materialından icazəsiz istifadə hallarının qarşısının alınması yollarını müəyyən edir.

Qeyd olunub ki, Azərbaycan Respublikasında media subyektlərinə, onların redaksiyalarına, jurnalistlərə dair məlumatların sistemləşdirilməsi məqsədilə media reyestrinin formalaşdırılması nəzərdə tutulub. Sənədə əsasən çap mediası və onlayn media subyektinin təsis edilməsi üçün dövlət orqanlarından icazə tələb olunmur. Çap mediası və onlayn media subyekti təsis etmək istəyən şəxs çap mediası məhsulunun istehsalından və onlayn materialın yayımlanmasından əvvəl rəsmi müraciət etməlidir. Reyestrin təşkili güzəştlərin və imtiyazların tətbiq olunan media subyektlərinin və jurnalistlərin dairəsinin müəyyənləşdirilməsi yolu ilə onların inkişafına dəstək layihələrinin iqtisadi və hüquqi əsaslarını formalaşdırmağa imkan verəcək.

## Bütün media sahələrinin vahid qanunla tənzimlənməsi nəzərdə tutulur

Bildirilib ki, layihədə beynəlxalq yanaşma nəzərə alınmaqla, media sahəsində baş verən qanunazidd hallara məhkəmə tərəfindən hüquqi qiymət verilməsi nəzərdə tutulub. Sənədə əsasən bütün media sahələri vahid qanunla tənzimlənir. Qanun layihəsinin qəbul edilməsi ilə "Kütləvi informasiya vasitələri haqqında" və "Televiziya və Radio yayımı haqqında" qanunların ləğv edilməsi nəzərdə tutulub.

Sonra iclasda qanun ətrafında geniş müzakirələr aparılıb. Milli Məclisin deputatları Qüdrət Həsənquliyev, Elman Nəsirov, Razi Nurullayev, Naqif Həmzəyev və KİV təmsilçiləri "Media haqqında" qanun layihəsi barədə fikirlərini açıqlayıblar, sənədin medianın inkişafında yeni imkanlar yaradacağını bildiriblər. Müzakirələr zamanı bir sıra qeyd və təkliflər də səsləndirilib.

Milli Televiziya və Radio Şurasının sədri İsmət Səttarov, qanun layihəsini hazırlayan işçi qrupunun rəhbəri, Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, Mətbuat Şurası sədrinin müavini Müşfiq Ələsgərli qanun layihəsinin hazırlanması prosesi zamanı görülən işlərdən bəhs ediblər, sənədlə bağlı səsləndirilən fikirlərə aydınlıq gətiriblər, iştirakçıları maraqlandıran bir sıra sualları cavablandırıblar.

İclasın sonunda "Media haqqında" qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "Turizm haqqında" yeni qanun layihəsi hazırlanıb



Dekabrın 10-da Milli Məclisin Əmək və sosial siyasət komitəsinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi ilə birgə iclası keçirilib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev gündəliyə birinci oxunuşda "Turizm haqqında" və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələrinin daxil edildiyini bildirib.

Komitə sədri turizmlə bağlı qanunun 1999-cu ildə qəbulundan keçən dövr ərzində turizm sahəsindəki inkişafın, dəyişikliklərin və yeni çağırışların mövcud qanunvericiliyin təkmilləşdirilməsi zərurətini doğurduğunu vurğulayıb. Bu kontekstdə komitələrin birgə iclasına çıxarılan "Turizm haqqında" yeni qanun layihəsi də müasir dövrün çağırışlarına uyğun Azərbaycanın turizm əlaqələrinin genişləndirilməsi, qeyri-neft sektorunun 4 əsas istiqamətindən biri olaraq turizm sənayesinin inkişafının təmin edilməsi, bu sahədə yaranan yeni münasibətlərin daha təkmil hüquqi bazada tənzimlənməsi məqsədilə hazırlanıb. Turizmin spesifik xüsusiyyətlərini qeyd edən Musa Quliyev sahə ilə bağlı statistik göstəriciləri iclas iştirakçılarının diqqətinə çatdırıb.

Sonra qanun layihələrini təqdim edən Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev "Turizm haqqında" qanun layihəsinin məqsəd və vəzifələri, ümumi konsepsiyası haqqında danışıb. Adil Vəliyev vurğulayıb ki, sənəd bütövlükdə turizm sənayesi subyektləri üzərində ağır öhdəliklər yaratmadan turizm bazarının tənzimlənməsinə, turizm sahəsində sahibkarlıq fəaliyyətinin dəstəklənməsinə, ölkənin turizm xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə və turist məmnunluğunun təmin edilməsinə istiqamətlənib. 5 fəsil, 22 maddədən ibarət layihədə əsas anlayışların mənaları verilib, turizmin forma və növləri, bu sahədə qanunvericiliyin çərçivəsi öz əksini tapıb, turizm sahəsində dövlət siyasətinin əsas istiqamətlərinə, vəzifələrinə aydınlıq gətirilib. Şöbə müdiri bildirib ki, layihədə dövlətin üzərinə turizm sahəsində əlverişli investisiya mühiti yaratmaq, sahibkarların maliyyə vəsaitlərinə çıxış imkanlarını genişləndirmək və rəqabətin məhdudlaşdırılmasının qarşısını almaq, turizm sənayesi subyektlərinin və turistlərin hüquqlarını, qanuni maraqlarını qorumaq kimi bir sıra öhdəliklər qoyulub. Layihədə turizmin xidmət keyfiyyətinin yüksəldilməsi, turizm iştirakçıları, onların etik davranış qaydaları, reyestrdə qeydiyyatı, hüquq və vəzifələri, təhlükəsizliyi, turizm vizalarının verilməsi kimi mütərəqqi yeniliklər təsbit edilib, turizm sahəsinin maliyyə mənbələri açıqlanıb.

İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə də məlumat verən Adil Vəliyev bildirib ki, "Turizm haqqında" qanunun qəbulu ilə əlaqədar məcəlləyə turizm haqqında qanunvericiliyin pozulması ilə bağlı sanksiya və cərimələr əlavə olunub.

İclasda çıxış edən Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev Azərbaycanda turizmin inkişafına Prezident İlham Əliyevin göstərdiyi diqqət və qayğı sayəsində əldə olunan uğurları qeyd edərək postpandemiya dövründə turizmin əvvəlki inkişaf tempinə tezliklə geri qayıdacağına və davamlı inkişaf mərhələsinə qədəm qoyacağına inamını bildirib. Müzakirə olunan yeni qanun layihəsinin əsas məqsədinin bütövlükdə ölkədə turizmin dayanıqlı inkişafını təmin etmək, beynəlxalq turizm bazarında Azərbaycanın etibarlı və cəlbedici imicini formalaşdırmaq və rəqabət qabiliyyətini artırmaq olduğunu qeyd edib. Fuad Nağıyev qanun layihəsində bir çox məqamların turizm sənayesinin fəaliyyətini stimullaşdırmaq və asanlaşdırmaq məqsədli olduğunu vurğulayıb.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili turizmin dünya və Azərbaycan iqtisadiyyatında tutduğu rolundan, onun məşğulluğun təmin olunmasında, qeyri-neft sektorunun inkişafındakı potensialından danışıb, işğaldan azad edilmiş ərazilərin turizm perspektivlərindən bəhs edib.

İclasda komitə sədrlərinin müavinləri Məlahət İbrahimqızı və Əli Məsimli, deputatlar Vahid Əhmədov, Soltan Məmmədov, Mahir Abbaszadə, Rauf Əliyev, İqbal Məmmədov, Məzahir Əfəndiyev, Sevinc Hüseynova, Arzu Nağıyev, Məşhur Məmmədov, Rüfət Quliyev, Əziz Ələkbərov, həmçinin QHT rəhbərləri çıxış ediblər.

Çıxışlarda Azərbaycanda turizmin keçdiyi yol və uğurlar qeyd olunub, turizm sahəsinin komponentləri qarşılıqlı əlaqədə işləyən bir iqtisadi istiqamət kimi dəyərləndirilib. Çıxışçılar qanun layihəsinin hazırlanmasında istinad edilən beynəlxalq təcrübə, işğaldan azad edilmiş ərazilərin turizm potensialı ilə bağlı məqamlarla maraqlanıblar, ümumilikdə turizmin inkişafı ilə bağlı fikirlərini bildiriblər, suallarını səsləndiriblər.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev və agentliyin Aparat rəhbəri Kənan Qasımov qaldırılan məsələlərə aydınlıq gətirib, sualları cavablandırıblar.

İclasın yekununda deputatlar "Turizm haqqında" qanun layihəsini və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə ediblər.

Komitələrin birgə iclasında deputatlar Aqil Məmmədov, Elnur Allahverdiyev, Anar Məmmədov, Ağalar Vəliyev, Kamal Cəfərov və digər rəsmi şəxslər iştirak ediblər.

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

# Azərbaycanın müdafiə naziri Bəhreyn Müdafiə Qüvvələrinin Baş Komandanı ilə görüşüb



Dekabrın 10-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə işgüzar səfərdə olan Bəhreyn Krallığının Müdafiə Qüvvələrinin Baş Komandanı feldmarşal Şeyx Xəlifə bin Əhməd əl-Xəlifə ilə görüşüb.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, general-polkovnik Zakir Həsənov Bəhreyn Krallığı ilə birgə hərbi əməkdaşlıqdan məmnunluğunu ifadə edərək, bu istiqamətdə görülən işlərin inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Qonaq Vətən müharibəsində qazanılan şanlı Qələbə münasibətilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Azərbaycan Ordusunun bütün şəxsi heyətinə həm öz adından, həm də Bəhreyn Kralı adından təbriklərinin çatdırılmasını xahiş edib.

Görüşdə regionda hərbi-siyasi vəziyyət, hərbi əməkdaşlığın inkişaf perspektivləri və müdafiə sahəsində digər məsələlər müzakirə olunub.

# Koreya Respublikasının Azərbaycandakı səfirinin ölkəmizdəki diplomatik fəaliyyəti başa çatır



Dekabrın 10-da xarici işlər naziri Ceyhun Bayramov Koreya Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Kim Tong Opu ölkəmizdəki diplomatik fəaliyyətinin bitməsi münasibətilə qəbul edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov Azərbaycan və Koreya arasında münasibətlərin siyasi, iqtisadi, humanitar istiqamətlərdə inkişafından məmnunluqla bəhs edib və səfirin bu xüsusda səylərini yüksək qiymətləndirib. Pandemiyaya rəğmən, son illərdə ikitərəfli münasibətlərin inkişafının davam etdiyini, səfərlərin həyata keçirildiyini, o cümlədən Koreya Respublikasının Prezidenti yanında Şimali İqtisadi Əməkdaşlıq Komitəsinin sədrinin ölkəmizə səfərini vurğulayan nazir əməkdaşlığın genişlənməsi üçün potensialın mövcud olduğunu qeyd edib.

Səfir Kim Tong Op Azərbaycanda diplomatik fəaliyyətdə olduğu 3 il ərzində ölkələrimiz arasındakı münasibətlərin məhsuldar şəkildə inkişaf etdiyini deyib və bu müddətdə ona göstərilən dəstəyə görə təşəkkürünü bildirib. O, Azərbaycana və bütün bölgəyə sülh, əmin-amanlıq və tərəqqi arzulayıb.

Gələn il Azərbaycan ilə Koreya arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünün qeyd ediləcəyinə istinad edən tərəflər bununla əlaqədar müxtəlif tədbirlərin təşkilinin əlaqələrin daha da möhkəmlənməsinə töhfə verəcəyindən əminlik ifadə ediblər.

Görüşdə tərəflər həmçinin çoxtərəfli platformalarda əməkdaşlıq və digər qarşılıqlı maraq doğuran məsələləri müzakirə ediblər.

Nazir Ceyhun Bayramov səfir Kim Tong Opa gələcək fəaliyyətində uğurlar arzulayıb.

# Gələn il üçün əmək miqrasiyası kvotasına dair təkliflər müzakirə edilib



Əmək miqrasiyası kvotasının müəyyən edilməsi üçün təkliflərin hazırlanması, bu sahədə işin əlaqələndirilməsi məqsədilə yaradılmış və bir sıra dövlət qurumlarının təmsil olunduğu komissiyanın iclası keçirilib.

Komissiyanın sədri, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin nailiyyətlərini qeyd edib. O, ölkəmizin əmək bazarında müsbət meyillərin davamlı xarakter aldığını, dayanıqlı inkişaf proseslərinin xarici əməkçi miqrantları üçün cəlbedici olduğunu bildirib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, ölkəmizdə ixtisaslı işçi qüvvəsinə tələbatın əsasən yerli ehtiyatlar hesabına təmin edildiyini vurğulayan S.Babayev deyib ki, hər il olduğu kimi, növbəti il üçün əmək miqrasiyası kvotası üzrə təkliflər hazırlanıb. Həmin təkliflərin hazırlanması zamanı ölkəmizdə işçi qüvvəsinə dair ehtiyacların yerli əmək ehtiyatları hesabına təmin edilməsi, müvafiq iş sahələrinə yüksəkixtisaslı əcnəbi mütəxəssislərin cəlb edilməsi zəruriliyi kimi amillər əsas götürülür.

Nazir həmçinin bu təkliflərin respublikadakı demoqrafik inkişaf, ölkənin əmək ehtiyatları və əmək bazarında işəgötürənlərin işçi qüvvəsinə tələbləri ilə əlaqədar təhlillər əsasında hazırlandığını diqqətə çatdırıb. Bildirib ki, növbəti il üçün kvota təklifi müəyyənləşdirilərkən vakansiyaların, ilk növbədə, müvafiq peşə hazırlığına, əmək bacarıqlarına malik olan yerli işçi qüvvəsi üçün istifadə olunması prinsipi üstünlük təşkil edir.

İclasda 2021-ci il üçün təsdiq olunmuş əmək miqrasiyası kvotasına dəyişiklik edilməsi və 2022-ci il üçün əmək miqrasiyası kvotası üzrə təkliflər müzakirə olunub. Təkliflərin baxılmaq üçün Nazirlər Kabinetinə təqdim olunması qərara alınıb.

# "3+3" formatında keçirilən görüşdə regionda etimadın artırılması, iqtisadiyyat və nəqliyyat əlaqələrinin bərpası ilə bağlı fikir mübadiləsi aparılıb

Dekabrın 10-da Moskva şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın irəli sürdüyü təşəbbüsə əsasən, "3+3" regional məsləhətləşmələr mexanizminin Azərbaycan, Ermənistan, İran, Rusiya və Türkiyə xarici işlər nazirlərinin müavinləri səviyyəsində təsis iclası keçirilib.



Xarici işlər nazirinin müavini Xələf Xələfov bununla bağlı AZƏRTAC-a açıqlamasında deyib: "Gürcüstanın gələcəkdə bu formata qoşulması bütün iştirakçılar tərəfindən təqdir edilib. Həyata keçirilən müzakirələrin nəticələri barədə Gürcüstan tərəfi də məlumatlandırılacaq. İclasda regionda etimadın artırılması, iqtisadiyyat və nəqliyyat əlaqələrinin bərpası, yenidən qurulması və genişləndirilməsi sahəsində əməkdaşlığın inkişafına yönəlmiş fikir mübadiləsi aparılıb".

Onun sözlərinə görə, mexanizm çərçivəsində nazir müavinləri səviyyəsində görüşlər və müzakirələrin ən azı ildə iki dəfə olmaqla, rotasiya əsasında hər dəfə bir iştirakçı ölkədə keçirilməsi nəzərdə tutulur. Görüşlər və müzakirələr Xarici İşlər nazirliklərinin əlaqələndirməsi və yönəltməsi çərçivəsində iqtisadiyyat və nəqliyyat nazirliklərinin, ehtiyac yarandıqda isə digər müvafiq qurumların iştirakı ilə keçiriləcək.

Məsləhətləşmələr mexanizminin fəaliyyətinin inkişafından asılı olaraq daha yüksək səviyyədə görüş və müzakirələr təşkil oluna bilər. Mexanizmin fəaliyyəti konsensus prinsipi əsasında aparılacaq.

"Görüşlərdə ümumi regional məsələlər və tərəflər üçün qarşılıqlı maraq doğuran, regional sabitliyə, rifaha töhfə verən təşəbbüs və layihələr müzakirə edilə bilər. Növbəti görüşün keçirilməsi diplomatik kanallar vasitəsi ilə razılaşdırılacaq", - deyə Xələf Xələfov əlavə edib.

# Xarici ticarət və ticarət tarifləri İşçi Qrupunun növbəti iclası keçirilib

Xarici ticarət və ticarət tarifləri İşçi Qrupunun "2021-ci il üzrə Fəaliyyət Planının yekunlarının və 2022-ci il üçün Fəaliyyət Planı layihəsinin müzakirəsi" mövzusunda növbəti iclası keçirilib.

İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Biznes mühiti və Beynəlxalq reytinqlər üzrə Komissiyanın Xarici ticarət və ticarət tarifləri üzrə İşçi Qrupunun videokonfrans formatında keçirilən iclasında aidiyyəti dövlət qurumlarının, ticarət və sənaye palatalarının, digər aidiyyəti qurum və şirkətlərin məsul şəxsləri iştirak ediblər. İclasda iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov hesabat dövrü ərzində ölkəmizdə xarici ticarət sahəsində əlverişli biznes mühitinin yaradılması ilə bağlı həyata keçirilmiş tədbirlər haqqında məlumat verib, bu tədbirlərin beynəlxalq indekslərdə ölkəmizin mövqeyinin daha da yüksəlməsinə töhfə verəcəyini bildirib.

Tədbirdə 2021-ci il üçün Fəaliyyət Planının müvafiq bəndlərinin icrası ilə bağlı görülmüş işlər haqqında müzakirələr aparılıb, əvvəlki iclas protokolunun qərarlar bölməsindəki tədbirlərin icra vəziyyəti ilə bağlı İşçi Qrupun üzvlərinin çıxışları dinlənilib, habelə 2022-ci il üçün Fəaliyyət Planının layihəsi müzakirə edilərək yekun layihənin komissiyanın katibliyinə təqdim edilməsi tövsiyə olunub.

# Media islahatları yeni mərhələyə qədəm qoyur

*Əvvəli 1-ci səh.*

## Yeni qanun ölkədə KİV-in inkişafı üçün əlverişli imkanlar yaradcaq

Bütün sahələrdə mütərəqqi islahatlar həyata keçirən Prezident İlham Əliyev medianın da qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğun olaraq modernləşməsi üçün yeni qanun layihəsi hazırlanması tapşırığını vermişdi. Artıq "Media haqqında" yeni qanun layihəsi hazırdır və sənəd ictimai müzakirəyə çıxarılıb. Qanunun mahiyyəti və həssaslığı nəzərə alınmaqla, normayaratma prosesində çoxsaylı media nümayəndələri və ekspertləri ilə fikir mübadiləsi aparılıb, normativ-hüquqi aktın layihəsinin 800-ə yaxın media subyekti, jurnalist və ekspertlə müzakirəsi təşkil olunub.

Media sahəsində normativ-hüquqi bazanın yaradılmasını və jurnalistlərin peşəkarlığının artırılmasını, digər mühüm məqamları özündə ehtiva edən sənəd - "Media haqqında" qanun layihəsi dünən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin və İnsan hüquqları komitəsinin birgə iclasında müzakirəyə çıxarılıb.

Tarixi qələbəmizlə yekunlaşan Vətən müharibəsinin başa çatmasından qısa müddət sonra Prezident tərəfindən "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərmanın imzalanması və "Media haqqında" qanun layihəsinin hazırlanması barədə tapşırığın verilməsi milli informasiya məkanında davamlı inkişafa nail olunmasının dövlət üçün prioritet təşkil etməsinin göstəricisidir.

"Media haqqında" qanun Azərbaycan mediasının inkişafı üçün yeni imkanlar və yeni mərhələ deməkdir. Media islahatları və onun əsas tərkib hissəsi olan "Media haqqında" qanun layihəsinin hazırlanması dövlətin siyasi iradəsini təcəssüm etdirir.

Ümumiyyətlə, dünyada məsuliyyətli media yalnız qanunların yaxşı işlədiyi şəraitdə inkişaf edir. Azərbaycanın yeni "Media haqqında" qanun layihəsi məhz məsuliyyətli medianın inkişafına təkan verəcək mütərəqqi qanun layihəsi kimi xarakterizə olunur.

Yeni qanun layihəsi ölkəmizdə medianın daha da inkişaf etdirilməsinə, jurnalistlərin peşəkarlıq səviyyəsinin artırılmasına xidmət edəcək. Qeyd edək ki, 1999-cu ildə qəbul olunmuş və hazırda qüvvədə olan "Kütləvi informasiya vasitələri haqqında" qanun bu günə kimi 79 dəfə dəyişdirilib və müasir çağırışlarla uzlaşmır. Yeni qanun layihəsi media subyektlərinin dəqiq təsnifatını verir və eyni zamanda jurnalistin sosial portretini müəyyənləşdirən vasitə kimi çıxış edir.

## Dövlət medianın inkişafında maraqlıdır

Sənəddə göstərilir ki, çap mediası subyektlərinin fəaliyyətə başlamazdan əvvəl bu barədə məlumat verməsi tamamilə yeni bir prosedur deyil və artıq bu istiqamətdə çoxillik təcrübə mövcuddur. Hazırda bu məlumatların sistemləşdirilməsi, müvafiq yanaşmanın onlayn media subyektlərinə də tətbiq olunması və sistemləşdirilmiş məlumatlar bazasının Media Reyestri adlandırılması nəzərdə tutulub. Reyestrə daxil edilmək üçün tələb olunan məlumatlar mahiyyət etibarı ilə mətbu nəşrlərin uçotu zamanı tələb olunan məlumatlardır, sadəcə, müasir dövrün çağırışlarına uyğunlaşdırılıb. Onsuz da bu məlumatlar və sənədlər media subyektlərində mövcuddur, reyestr, sadəcə, onları vahid bazada toplayır və pərakəndəliyin qarşısını alır. Çünki dağınıq və səpələnmiş məlumatlar medianın inkişafına dəstək layihələrinin həyata keçirilməsinə və bu istiqamətdə səmərəli fəaliyyətin təşkil edilməsinə mane olur.

Tələb olunan rəsmi məlumatın məqsədi həm media subyektlərinin, həm də jurnalistlərin fəaliyyətinin daha səmərəli təşkilini və onların hüquqlarının ən yüksək səviyyədə müdafiəsini təmin etmək, heç bir qanuni əsası olmadan özünü media subyekti və ya jurnalist kimi təqdim edən və qeyd olunan statusdan sui-istifadə edən şəxslərin fəaliyyətinin qarşısını almaqdır.

Reyestrin aparılması nəticəsində keyfiyyətli xəbər istehsalını təmin etmək, bu sahədə stimullaşdırıcı tədbirləri həyata keçirmək mümkün olacaq, kütləvi informasiyanın əldə olunması, ötürülməsi, istehsalı və yayımı fəaliyyətini təsadüfi və qeyri-müntəzəm şəkildə həyata keçirən, əsas istiqaməti media sahəsində fəaliyyətin həyata keçirilməsi olmayan subyektlər media subyekti hesab edilməyəcək.

Beləliklə, güzəşt və imtiyazların tətbiq oluna biləcəyi media subyektlərinin və jurnalistlərin dairəsi müəyyənləşəcək, bu istiqamətdəki fəaliyyətin həcmi və əhatə dairəsi planlaşdırılacaq.

Sənəddə göstərilir ki, jurnalistlərin Media Reyestrinə daxil edilməsi könüllü xarakter daşıyır. Jurnalistlərə veriləcək vəsiqə olmasa da, şəxs jurnalist kimi fəaliyyət göstərə bilər. Media subyektləri onlarla işləyən jurnalistlərə özlərinə məxsus vəsiqələri verməkdə tam müstəqildirlər.

Media Reyestrinə daxil edilmiş jurnalistlərə vahid jurnalist vəsiqəsinin təqdim olunması könüllülük prinsipi əsasında həyata keçirilsə də, media mühitinin sağlamlaşmasına müsbət təsir göstərəcək. İnformasiyaya dair tələblərin müəyyənləşdirilməsi, eyni zamanda ciddi medianın yaralı yeri olan müəllif hüquqlarının qorunmasına hüquqi təminatın verilməsi media subyektləri arasında sağlam rəqabət mühiti formalaşdıracaq.

Qanun sosial şəbəkələrin və "bloqçu"ların fəaliyyətini tənzimləmir. İnternet televiziyaların lisenziya almaq üçün müraciət etməsi məcburi xarakter daşımır. Lisenziya almayan internet televiziyalar öz fəaliyyətlərini maneəsiz davam etdirə biləcəklər. Qanun jurnalistika peşəsinin ciddi mahiyyət qazanmasına təkan verəcək, ictimaiyyətdə jurnalistikaya və jurnalistlərə qarşı formalaşmış neqativ təsəvvürlərin aradan qaldırılmasına şərait yaradacaq, ictimaiyyət və media arasında qarşılıqlı etimadın güclənməsini təmin edəcək.

Media subyektlərinin istehsal etdikləri məhsullar üzərindəki müəlliflik hüquqlarının qorunması təmin ediləcək, media subyektlərinin bir-birilərindən xəbər "oğurlamaq" vərdişləri aradan qaldırılacaq, xəbər uğrunda mübarizə və xəbər yaratmaq bacarıqlarının inkişafı təşviq ediləcək.

Çap mediası və onlayn media subyektinin təsis edilməsi üçün dövlət orqanlarından icazə tələb olunmur. "Vətəndaş jurnalistikası" adlandırılan və peşə olaraq deyil, hobbi olaraq həyata keçirilən fəaliyyət bu qanunun təsir dairəsinə daxil deyil. Necə ki, hər hüquqşünasın vəkil, hər mühazirəçinin müəllim olmadığı kimi.

Qanunda nəzərdə tutulan müddəalar informasiya mühitinin milliləşdirilməsini və daxili informasiya məkanının təhlükəsizliyini təmin etməyə, milli məhsul istehsalını stimullaşdırmağa, yerli medianın inkişafına təkan verməyə, nəticə etibarilə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına daha geniş şərait yaradacaq.

Mütəxəssislər hesab edirlər ki, "Media haqqında" qanun layihəsi dövlət-media münasibətlərində əsas elementlərdən biri kimi hüquqi mənzərənin dəqiqləşməsinə öz töhfəsini verəcək.

Bir sözlə, Azərbaycan mediasının inkişafında maraqlı olan dövlətin bu addımı onu deməyə əsas verir ki, 146 yaşlı mətbuatımızın ənənələrini qoruyub saxlamaq və daha da inkişaf etdirmək qarşıya vacib məsələ kimi qoyulub. Yeni "Media haqqında" qanun bu vəzifələrin yerinə yetirilməsinə yol göstərəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# MEDİA Agentliyi «Media haqqında» qanun layihəsinin ictimai müzakirəsinin təşkili ilə bağlı fikirlərə münasibət bildirib

Medianın İnkişafı Agentliyi (MEDİA) "Media haqqında" qanun layihəsinin ictimai müzakirəsinin təşkili ilə bağlı bir sıra media nümayəndələri tərəfindən ifadə edilən fikirlərə münasibət bildirib.

MEDİA-dan AZƏRTAC-a bildirilib ki, Medianın İnkişafı "Normativ-hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun 9.2-ci maddəsində normayaratma orqanının qərarı ilə normativ-hüquqi aktın layihəsinin açıq (ictimai və ya peşəkar) müzakirəyə çıxarıla biləcəyi göstərilir.

"İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununun 18.1-ci maddəsində Azərbaycan Respublikasının Konstitusiyasının 96-cı maddəsinin I hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilən qanun layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin Azərbaycan Respublikası Milli Məclisinin Aparatı tərəfindən təşkil edildiyi təsbit olunmuşdur.

"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun 29.1.10-cu maddəsində isə informasiya sahibinin normativ-hüquqi aktların layihələri razılaşdırmaya və ya təsdiq olunmağa göndərildiyi andan onları açıqlamaq vəzifəsi müəyyən edilmişdir.

Qeyd olunan normaların məzmunundan göründüyü kimi, qanun layihələrinin, o cümlədən "Media haqqında" Azərbaycan Respublikası qanunu layihəsinin ictimai müzakirəsinin təşkil edilməsi normayaratma orqanının, yəni Azərbaycan Respublikasının Milli Məclisinin səlahiyyətindədir, müvafiq layihələr ya razılaşdırılmaya, ya da təsdiq olunmağa göndərildiyi andan açıqlanmalı olduğundan Milli Məclis bu istiqamətdə müddəaların yerinə yetirilməsi məqsədilə qanunvericiliklə müəyyən edilmiş tələblərə uyğun olaraq "Media haqqında" qanun layihəsini açıqlamış, onu media nümayəndələrinin, ekspertlərin, vətəndaş cəmiyyəti institutlarının və bu məsələdə ictimai marağı olan digər şəxslərin müzakirəsinə təqdim etmişdir.

Məlumat üçün bildiririk ki, hazırda müvafiq qanun layihəsinin mətni ictimaiyyətin geniş müzakirəsindədir və onun ayrı-ayrı normalarının mahiyyəti, məqsədəuyğunluğu ətrafında çoxsaylı media nümayəndələri və ekspertlərini əhatə edən qarşılıqlı fikir mübadiləsi aparılmaqdadır.

# YARAT Müasir İncəsənət Məkanı onillik yubileyini qeyd edib

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib




YARAT Müasir İncəsənət Məkanı onillik tədbirləri çərçivəsində “Ön söz-On söz” xronikal qrup sərgisini təqdim edib. On il ərzində toplanan YARAT kolleksiyası və YARAT-ın sifarişi ilə hazırlanmış seçmə əsərlər ilk dəfə olaraq Daş Salnamə Muzeyində bir ekspozisiyada nümayiş olunub.




AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Tədbirdə çıxış edən tanınmış rəssam Aida Mahmudova deyib: “Bu gün burada 10 illiyimizi bizimlə bölüşdüyünüzə görə çox şadam. Bu, rəssam və ziyarətçilərimiz üçün dəyərlidir. Zaman prizmasından baxanda on ilin bir ana bənzədiyini görərik. Amma bu zaman kəsiyində YARAT çox işlər görüb. Mən çox istedadlı və öz sənətini sevən peşəkarlarla işləyirəm. Öz komandamı təbrik edirəm”.

Tədbirdə YARAT-ın yubileyi münasibətilə audiovizual performansın nümayişi və İsfar Sarabskinin solokonserti təqdim olunub.



Sərgi YARAT-ın ilk layihəsi olan “Ön söz”ə istinadla bu dövr ərzində YARAT-ın keçdiyi yol və yeni nəsil müasir rəssamların yetişdirməsi və formalaşdırılmasında oynadığı müstəsna rolunu nümayiş etdirir.

Yaddaş və tarix anlayışları ətrafında toplanmış eksponatlardan ibarət ekspozisiya keçmişin indiki anımıza qədər diffuziya etməsinin etirafıdır. Keçmişin maddi reallığı ilə qarşılaşan indiki reallıq bir sürətə bağlıdır. Sərgi yaşadığımız sürətin bizi əhatə edən keçmişin simvolları və xatirələri ilə necə uzlaşdığını nəql edir, ənənə və cəmiyyət, dəyərlər sistemi, ziddiyyətli həqiqətlər mövzularına toxunur. İnsan varlığı və mövcudluğunun fərqli aspektləri araşdırılaraq, onların formalaşmasında keçmişin əhəmiyyətini və rolunu ön plana çəkir.

YARAT kolleksiyasının ən mühüm əsərlərindən ibarət ekspozisiya Afruz Amighi, Faiq Əhməd, Rəşad Ələkbərov, Çinarə Məcidova və Elturan Məmmədovun instalyasiya, heykəl, video və foto əsərlərini bir araya gətirir.



# Şəhid ailələrinə və müharibə veteranlarına qayğı göstərmək dövlətin prioritetidir

Əvvəli 1-ci səh.

Düşmənin kapitulyasiya aktı imzalamasının ertəsi günü, yəni 11 noyabr 2020-ci ildə Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşdülər. Ali Baş Komandan yaralı hərbçilərimizi parlaq qələbə münasibətilə təbrik edərək söylədi ki, ona görə bu gün, müharibə başa çatandan dərhal sonra gəlmişəm ki, sizə öz hörmətimi ifadə edim: “Gəlmişəm ki, sizə şəxsən öz təşəkkürümü bildirim, sizi təbrik edim. Mənim birinci təbrik etdiyim insanlar sizsiniz və sizin simanızda bizim bütün qəhrəman döyüşçülərimizdir”.

Prezident İlham Əliyev onu da xüsusi vurğuladı ki, mən hər zaman sizinlə bir yerdə olacağam: “Mənə arxalana bilərsiniz. Bizim qəhrəman döyüşçülərimiz gələcək həyatda da daim mənim nəzarətim altında olacaqlar”.

Həmin görüş zamanı ölkə başçısı həm də bütün aidiyyəti qurumlara göstəriş verdi ki, İkinci Qarabağ müharibəsində şəhid olmuş insanların yaxınlarına qısa müddət ərzində maddi dəstək göstərilsin, onlara evlərin verilməsi təmin edilsin.

### 11 mindən çox şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə təmin edilib

Ötən illər ərzində Prezident İlham Əliyevin imzaladığı müvafiq fərman və sərəncamlar əlil və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm rol oynayıb. Hazırda bu istiqamətdə həyata keçirilən tədbirlər sistemli və ardıcıl xarakter daşıyır.

Bu baxımdan Zəfərlə sonlandırılan Vətən müharibəmizdə yaralanmış hərbi qulluqçuların əlilliyinin qiymətləndirilməsinə də xüsusi qayğı və həssaslıqla yanaşılır. Artıq ötən dövrdə Vətən müharibəsinin 2200 qazisinə ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik təyinatı aparılıb və hazırda da bu işlər davam etdirilir.

Əlilliyi olan şəxslərə, o cümlədən müharibə əlillərinə yönələn sosial ödənişlər (pensiya və müavinətlər, təqaüdlər) də mütəmadi olaraq artırılır. Xüsusilə son üç ildə həmin ödənişlərdə orta hesabla 2 dəfə artım baş verib.

İndiyədək 11 mindən çox şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə təmin edilib. Dövlət başçısının 25 yanvar 2021-ci il sərəncamı ilə 2021-2025-ci illərdə onlara daha 11 min mənzil və fərdi ev verilməsi nəzərdə tutulub.

Əlilliyi olan şəxslərin reabilitasiya xidmətləri və vasitələri ilə təminatı sahəsində də işlər davam etdirilir. Prezident İlham Əliyevin tapşırığına əsasən, 2019-2021-ci illərdə Əmək




və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir olunaraq yenidən qurulub və ən müasir avadanlıqlarla təchiz edilərək istifadəyə verilib.

Həmin reabilitasiya müəssisələrində bu ilin 10 ayında əlilliyi olan şəxslərdən, habelə müharibə əlillərindən ibarət 6450 nəfərə reabilitasiya xidmətləri, həmçinin Vətən müharibəsinin 1040 nəfər qazisinə sosial psixoloji dəstək xidmətləri göstərilib.

Müharibə əlillərinin yüksək texnologiyalı elektron protezlərlə təminatı işləri aparılır və Vətən müharibəsində yaralanmış, aşağı və yuxarı ətrafları amputasiya edilmiş 160 hərbçi 168 son nəsil protezlə təmin edilib.

### Bu ailələrə yeni vergi güzəştləri ediləcək

Qazi və şəhid ailələrinə qayğı baxımından Prezident İlham Əliyevin 8 dekabr 2020-ci il tarixində “Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun yaradılması haqqında” fərmanı ilə “YAŞAT” Fondunun təsis edilməsi isə müstəsna əhəmiyyətə malikdir. Fond vasitəsilə də mütəmadi qazilərimizə və şəhid ailələrinə dəstək göstərilir.

Dövlətin bu kateqoriyadan olan şəxslərə dəstək tədbirlərindən biri də parlamentin qəbul etdiyi Vergi Məcəlləsinə dəyişikliklərdə əksini tapıb. Belə ki, məcəlləyə edilən dəyişikliklərlə Vətən müharibəsində şəhid olmuş şəxslərin ailə üzvləri və qazilər üçün yeni vergi güzəştləri müəyyənləşib.

“Vətən müharibəsində qələbə münasibətilə” Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi də ərazi bütövlüyümüz uğrunda döyüşən hərbçilərimizə yüksək ehtiramın təzahürüdür. Prezident İlham Əliyevin imzaladığı sərəncamlara əsasən, Silahlı Qüvvələrimizin döyüşlərdə iştirak edən bütün hərbi qulluqçuları orden və medallarla təltif edilib.

O cümlədən ərazilərimizin işğaldan azad olunması uğrunda aparılan hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət göstərmiş, döyüş tapşırıqlarını uğurla yerinə yetirərək Vətən müharibəsi zamanı şəhidlik zirvəsinə yüksəlmiş igidlərimiz də orden və medallara layiq görülüb, bu yüksək mükafatlar onların ailələrinə təqdim olunub.

Bu sadalananlar bir daha onu göstərir ki, Azərbaycan dövləti bütün kateqoriyalardan olan vətəndaşlarına daim qayğı və həssaslıqla yanaşır və onların sosial rifahının yüksək olması istiqamətində mühüm işlər reallaşdırır.

***Yasəmən MUSAYEVA, “Azərbaycan”***

# bp “Şahdəniz” layihəsindəki payını artırır

bp Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən nəhəng “Şahdəniz” yatağındakı iştirak payını artırmağa qərar verib. Bu, PETRONAS şirkətinin daha öncə elan olunmuş iştirak payının satışı ilə bağlı bp-nin öz üstünlük hüququndan istifadə etmək haqqında layihədəki tərəfdaşları ilə apardığı danışıqlar vasitəsilə qərarlaşdırılıb.

bp-dən aldığımız bu məlumatda bildirilir ki, şirkət əməliyyatçısı olduğu “Şahdəniz” yatağı üzrə PETRONAS-dan 1,16 faiz iştirak payını 168 milyon dollar məbləğinə almaq haqqında razılığa gəlib. Bu məbləğ PETRONAS tərəfindən öncə elan edilmiş “Şahdəniz” üzrə sövdələşmənin eyni kommersiya şərtləri əsasında razılaşdırılıb. Nəticədə bp-nin “Şahdəniz”dəki ümumi iştirak payı 29,99 faiz təşkil edəcək. bp yatağın operatoru olaraq qalacaq.

Qeyd edək ki, PETRONAS-ın “Şahdəniz”dəki payının satışı ilə bağlı bp ilə həmin şirkət arasında sövdələşmənin 2022-ci ilin yanvar ayının sonunadək başa çatacağı gözlənilir.

***“Azərbaycan”***

# Azərbaycan Qarabağ və Şərqi Zəngəzurda yeni həyat qurur

## Ermənistanın göz yaşlarına inananların sayı isə getdikcə azalır

Əvvəli 1-ci səh.

“Total” Fransanın iri neft şirkətidir və ölkədə siyasi dairələrə təsir göstərmək imkanındadır. Bu şirkət həm də ölkəmizdə icra edilən neft-qaz layihələrində əhəmiyyətli tərəfdaşımızdır. Xəbər verildiyi kimi, Prezident İlham Əliyev dekabrın 7-də şirkətin kəşfiyyat və hasilat üzrə prezidenti Arnaud Breuillacı qəbul etmişdir. Görüşdə şirkətin prezidenti dövlətimizin başçısına ölkəmizlə bərpaolunan enerji sahəsində əməkdaşlıq etmək arzusunu bildirmişdir. Göründüyü kimi, Fransa şirkətləri üçün ermənilərin nə deməsi maraqlı deyil, onların istəkləri Azərbaycanla əməkdaşlıq edib gəlirlərini artırmaqdır.

Eləcə də Rusiyanın böyük biznes və maliyyə dairələrinin ölkəmizə gəlib işğaldan azad olunan ərazilərdə iş görmək istəmələri erməniləri çox məyus edib. Çünki onlar illərlə Rusiya iş adamlarını cəlb etmək istəsələr də, buna nail ola bilməyiblər.

Ermənilərin danışıqları uzatmaqda və bölgədə gərginliyi saxlamaqda əsas məqsədi işğaldan azad edilmiş ərazilərin bərpasına mane olmaq, ən azından bu prosesi bir qədər gecikdirməkdir. Güman edirlər ki, həmin ərazilərdə xarici ölkələrin biznes qurması, yerli əhalinin doğma yerlərə qayıtması “status”, “problemin həlli” kimi cəfəng bəyanatlarla yubadıla bilər. Bu baxımdan Zəngəzur dəhlizinin açılması ermənilərin ölkəmizlə bağlı bütün iddialarına son qoyulması demək olacaq.

Prezident İlham Əliyevin apardığı siyasətin əsas məqsədi işğaldan azad edilən əraziləri siyasi mübahisə predmetindən çıxarıb iqtisadi əməkdaşlıq müstəvisinə çevirməkdir. Bu gün işğaldan azad olunan torpaqlara dünyanın inkişaf etmiş ölkələrinin investisiya yatırmaq üçün növbəyə durması dövlətimizin başçısının böyük qələbəsindən xəbər verir.

Deyilənləri bu fakt da təsdiq edir ki, işğaldan azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı İqtisadiyyat Nazirliyinə 900-dən çox müraciət daxil olub. Onların təxminən üçdəbiri xarici, qalanı yerli şirkət və sahibkarlardır. İnvestisiya layihələrinin prioritetliyi təhlil olunur, potensial layihələr müəyyənləşdirilir və informasiya bazasına daxil edilir. İnnovasiya fəallığının artırılması və iqtisadi canlanmanın təşkili, bu sahədə çalışacaq sahibkarlar üçün stimullaşdırıcı mexanizmlər, sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün daha əlverişli şəraitin yaradılması məqsədilə müvafiq təkliflər hazırlanır. Təkliflərdə vergi, gömrük və kommunal xidmətlər üzrə güzəştlərin tətbiqi, maliyyə mənbələrinə çıxışın asanlaşması (dövlət zəmanəti ilə bank kreditlərinin verilməsi) kimi dəstək tədbirləri əksini tapacaq.

***Rüstəm KAMAL, “Azərbaycan”***




# Ordumuzun mühəndis-istehkam bölmələri azad olunmuş ərazilərimizin minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi işlərini davam etdirir






Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri Türkiyənin hərbi istehkamçıları ilə birgə azad olunmuş ərazilərimizin minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi işlərini davam etdirir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətini təmin etmək məqsədilə yollar minalardan və qar örtüyündən təmizlənir, həmçinin dağlıq və çətin keçilən ərazilərdə yerləşən bölmələrimizin mövqelərinə yeni təminat yolları çəkilir.

Azad olunmuş ərazilərimizdə mühəndis-istehkam bölmələrinin fəaliyyəti nəticəsində dekabrın 1-dən 10-dək 342 ədəd piyada və tank əleyhinə minanın aşkar olunaraq zərərsizləşdirilməsi ilə 96,7 hektar ərazi təmizlənib.

Ümumilikdə azad olunmuş ərazilərdə bu günədək mühəndis qoşunları tərəfindən 17 min 202 mina və partlamamış döyüş sursatı aşkarlanaraq məhv edilib, 13 min 273 hektar ərazi minalardan təmizlənib, digər dövlət qurumları ilə qarşılıqlı əlaqədə 628 kilometr yol çəkilib.

Yaşayış məntəqələrimizin, əkin üçün yararlı olan ərazilərin minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi işlərinə Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin sərəncamına verilən Türkiyənin Milli Müdafiə Nazirliyinin tabeliyindəki “ASFAT AŞ” şirkəti tərəfindən istehsal olunan “MEMATT” (Mexanik Mina Təmizləmə Təchizatı) texnikası da cəlb edilib.

Azad olunmuş ərazilərimizdə mühəndis təminatı üzrə tədbirlər davam etdirilir.

# ADA Universitetinin təşkil etdiyi "Xarici siyasət proqramı" yekunlaşıb



ADA Universitetinin İxtisasartırma Proqramları üzrə oktyabrın 5-dən dekabrın 7-dək təşkil edilən "Xarici siyasət proqramı"na uğurla yekun vurulub.

Universitetdən AZƏRTAC-a bildirilib ki, bununla bağlı keçirilən bağlanış tədbiri proqram məzunlarını bir araya gətirib.

ADA Universiteti prorektorunun müavini Aygün Hacıyeva məzunları təbrik edərək "Xarici siyasət proqramı"nın illik fəaliyyət yekunlarına dair məlumat verib. Qeyd edib ki, proqram Universitetin idarəetmə, eləcə də professor-müəllim heyətini təmsil edən 20-dək peşəkar mütəxəssisin səy və dəstəyi nəticəsində ərsəyə gəlib. Dövlət və özəl sektorda fəaliyyət göstərən yüksək səlahiyyətli rəsmilərin tədris etdiyi proqram iştirakçıların peşəkar fəaliyyətini təkmilləşdirir.

Xarici İşlər Nazirliyinin Kadrlar idarəsinin rəisi Raman Məmmədov proqramın uğurla təşkilinə görə ADA Universiteti komandasına minnətdarlığını bildirib, iştirakçıların rəylərini dinləyərək, onlarla öz tövsiyələrini bölüşüb.

Proqramda Xarici İşlər, Təhsil, Rəqəmsal İnkişaf və Nəqliyyat, Fövqəladə Hallar, Mədəniyyət və Energetika nazirliklərinin, eləcə də xaricdə fəaliyyət göstərən 24 diplomatik korpus və nümayəndəliyimizin 105 yüksəkrütbəli diplomatları, orta vəzifəli əməkdaşları və gənc dövlət qulluqçuları iştirak ediblər. Həmin iştirakçılardan 36-sı Azərbaycanı xaricdə təmsil etdiyindən mühazirələrə onlayn formatda qoşulublar.

Proqram ərzində Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov, energetika nazirinin müavini Elnur Soltanov, Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva mühazirələrlə çıxış ediblər.

Proqrama qoşulan peşəkarlar Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini Fuad Hüseynovun, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin üzvü Esmira Cəfərovanın, Azərbaycanın Xorvatiyadakı səfiri Fəxrəddin Qurbanovun, BMT-nin Rezident - Əlaqələndiricisinin ofisində (Azərbaycan) əlaqələndirmə üzrə müşavir Şəms Mustafayevanın mühazirələrində iştirak ediblər. Onlar ADA universitetinin icraçı prorektoru fariz İsmayılzadənin, universitetin Azərbaycandakı Fondunun prezidenti Natiq Hacıyevin mühazirələrini dinləyiblər.

ADA Universitetinin İctimai və beynəlxalq münasibətlər, eləcə də İqtisadiyyat fakültələrinin dekan və müəllimləri tədris müddəti ərzində iştirakçıları zəruri olan bilik və bacarıqlarla təmin ediblər. Xarici ekspertlərdən isə ABŞ-ın Mərkəzi Asiya-Qafqaz İnstitutu və İpək Yolu Birgə Araşdırmaları Proqramı Mərkəzinin eksperti Svante Kornel, Corctaun Universitetinin professoru Brenda Şaffer proqramın tədrisində iştirak ediblər.

Proqramda diplomatik protokol, Azərbaycanın qlobal arenadakı rolu, iqtisadi və enerji məsələləri, media ilə münasibətlər, ictimai diplomatiya, beynəlxalq humanitar hüquq barədə mövzular əhatə olunub, İkinci Qarabağ müharibəsinin regiona təsirləri xüsusilə təhlil edilib. Bununla yanaşı, iştirakçılara kommunikasiya və natiqlik bacarıqları, peşəkar müstəvidə danışıqların aparılması üzrə praktik bacarıqlar ötürülüb.

Beynəlxalq humanitar hüquq üzrə keçirilən mühazirələr çərçivəsində Birinci və İkinci Qarabağ müharibələri zamanı Ermənistanın törətdiyi cinayətlər beynəlxalq hüququn norma və prinsipləri kontekstindən analiz edilib.

Xatırladaq ki, 2007-ci ildən etibarən təşkil edilən "Xarici siyasət proqramı"ndan indiyədək 1833 yerli diplomat və dövlət məmuru məzun olub.

# Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Gəncədə olub

Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi və ofis rəhbəri Hande Harmancının başçılıq etdiyi nümayəndə heyəti Gəncəyə səfər edib.



Səfər çərçivəsində Gəncə Şəhər İcra Hakimiyyətində keçirilən görüşdə COVID-19 pandemiyasının qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlər və vaksinasiya prosesinin gedişi barədə ətraflı söhbət aparılmışdır.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov diqqətə çatdırıb ki, bütün dünyanı çənginə alan COVID-19 pandemiyası ilə mübarizə çərçivəsində Gəncə şəhərində də müvafiq işlər görülür. ÜST-ün tövsiyələri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müvafiq tapşırıqları, eləcə də Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarlarına uyğun olaraq şəhər ərazisində mütəmadi dezinfeksiya işləri, habelə əhali arasında maarifləndirmə tədbirləri həyata keçirilir. Bu işlərə paralel olaraq reyd və monitorinqlər də aparılır. Gəncə şəhərində COVID-19 əleyhinə vaksinasiya prosesi də uğurla davam edir.

Görüşdə şəhər icra hakimiyyəti başçısının birinci müavini Səməd Tomuyev Gəncədə 14 məntəqədə vaksinasiya aparıldığını qonaqların diqqətinə çatdırmış və vurğulamışdır ki, sakinlərin rahatlığını təmin etmək məqsədi ilə dövlət və özəl tibb müəssisələri ilə yanaşı, sosialyönümlü obyektlərdə də məntəqələr qurulmuşdur. Əhalinin maarifləndirilməsi ilə bağlı Gəncə Şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə yerli televiziya və radio kanallarında həftə ərzində bir neçə dəfə həkim-mütəxəssislərin iştirakı ilə verilişlər hazırlanır.

"Gəncə Şəhər Birləşmiş Xəstəxanaları" PHŞ-nin direktoru Nazim Əhmədov bildirib ki, ötən il Prezident İlham Əliyevin iştirakı ilə Gəncə şəhərində 200 çarpayılıq tam təchizatlı yeni modul tipli xəstəxana istifadəyə verilib. Hazırda burada 118 COVID-19 xəstəsi müalicə alır. Xəstəxanada Gəncə ilə yanaşı, ətraf rayonların sakinlərinə də xidmət göstərilir. Gün ərzində Gəncə şəhəri və ətraf rayonların sakinlərindən götürülən yaxma analizləri Abbas Səhhət adına Xəstəxanada quraşdırılan müasir laboratoriyada yoxlanılır.

Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi və ofis rəhbəri Hande Harmancı COVID-19-la mübarizə çərçivəsində Gəncə şəhərində görülən işləri təqdirəlayiq hesab etdiyini bildirib. O, qeyd edib ki, tibbi maskalardan istifadə, sosial məsafənin saxlanılması və vaksinasiya kimi həyata keçirilən qabaqlayıcı tədbirlərin faydası görülməkdədir. Müşahidələr göstərir ki, vaksinasiya prosesinin geniş vüsət aldığı ərazilərdə ölüm halları nəzərəçarpacaq dərəcədə azalmaqdadır. O bildirib ki, I doza önəmli olsa da, vaksin öz təsirini II dozadan sonra göstərir.

Hande Harmancı xüsusilə risk qrupuna daxil olan şəxslərin vaksin olunmalarının vacibliyinə toxunub. O, qeyd edib ki, tibb işçiləri, yaşı 65 və daha yuxarı olan şəxslər, həmçinin hamilə qadınlar vaksin olunmalıdırlar. "Son zamanlar mütəxəssislər hamilə qadınların da vaksin olunmaları yönündə fikirlər bildirirlər", - deyə ÜST-ün Azərbaycandakı nümayəndəsi bildirib. O, COVID-19 virusunun yeni ştamlarından da söz açıb. 5-14 yaş arası uşaq və yeniyetmələr arasında "Delta-M" və "Omikron" ştamlarına yoluxma hallarının artdığını bildirən Hande Harmancı Azərbaycanda hələ ki "Omikron" ştamına rast gəlinmədiyini qeyd edib.

Görüşdə Avropa İttifaqı və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən "COVID-19 əleyhinə vaksinasiyaya dəstək" və "Sağlamlıq üçün həmrəylik təşəbbüsü" layihələrinin icra edildiyi şəhər rəhbərinin diqqətinə çatdırılıb.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# Azərbaycan hökumətinin pandemiya dövründə belə tez tədbirlər görməsi təqdirəlayiqdir

"Azərbaycan hökuməti COVID-19 ilə mübarizəyə sürətli şəkildə başladı. Hökumətin pandemiya dövründə belə tez tədbirlər görməsi təqdirəlayiqdir".

Bunu AZƏRTAC-a Gəncədə səfərdə olan Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəsi Hande Harmancı deyib.

"Bununla yanaşı, Azərbaycanda əhalinin koronavirusla mübarizəyə dəstəyi də təqdir olunmalıdır. Bir çox Qərbi Avropa ölkəsindən fərqli olaraq, Azərbaycan əhalisi həm vaksini daha tez qəbul etdi, həm də ictimai səhiyyə tədbirlərinə sıx əməl olunmağa başladı. Bu da təbii ki, yoluxma sayının az olmasına öz təsirini göstərir. Bunun davamlı olması çox əhəmiyyətlidir, - deyə ÜST-ün nümayəndəsi əlavə edib.

# Pandemiyanın gedişatı dəyişə bilər

*Əvvəli 1-ci səh.*

## "Omikron" pandemiyanın gedişatına böyük təsir göstərə bilər

Dünya ölkələrində yayılmaqda davam edən "Omikron"la bağlı ümidverici açıqlamalar verən Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) onu digər variantlar qədər təhlükəli saymır.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Gebreyesus bildirib ki, "Omikron"nun bəzi xüsusiyyətləri onun pandemiyanın gedişatına böyük təsir göstərə biləcəyini göstərir: "Ancaq bu təsirin nə olacağını dəqiq bilmək hələ çətindir. Yoluxmanın dəqiq sürətini ölçmək çətin olsa da, biz bu halların sürətlə artdığını görürük. "Omikron"un "Delta"dan daha yüngül xəstəliyə səbəb olduğuna dair bəzi sübutlar var, lakin buna əmin olmaq hələ tezdir".

ÜST-ün fövqəladə hallar üzrə direktoru Maykl Rayan bu ştamın əvvəlki variantlardan daha yoluxucu olsa da, şiddətli olmadığını açıqlayıb. O, koronavirusun istiqamətinin "şiddət"ə doğru getdikcə daha az irəlilədiyini söyləyib.

Türkiyənin Səhiyyə Nazirliyinin Koronavirus elmi komitəsinin üzvü professor Alper Şenerin də klinik mənzərəsi daha "yumşaq" görünən "Omikron"la bağlı fikirləri nikbindir: "Laboratoriya tədqiqatları göstərir ki, "Omikron" mövsümi koronavirusa çevrilib. Bu, o deməkdir ki, virus yumşalır".

Rusiyanın Tibbi Parazitologiya İnstitutunun direktoru, professor, virusoloq Aleksandr Lukaşev "Omikron"un pandemiyanın gedişatına ciddi təsir edəcəyini düşünməsinə baxmayaraq, sevinmək üçün hələ səbəb görmür: "Hələ ki, rahatlanmaq, sevinmək üçün səbəb görmürəm. Bu, vaxtından əvvəl ortaya atılmış xülyadır".

Virusoloqun fikrincə, mutasiyaların rekord çoxluğu səbəbindən virusun zəiflədiyini düşünmək üçün tutarlı əsas yoxdur: "Adətən, belə qeyri-stabil viruslar populyasiyadan tez çıxır və effektiv yayılıb dayanıqlı ola bilmir. Lakin "Omikron" göründüyü kimi yaxşı yayılıb. Hər gün yoluxan ölkələrin sayı artır. Bu ştama vaksin vurduran şəxslər də yoluxurlar. Ona görə yoluxma artacaq, bu da pandemiyanı daha aktiv edəcək. "Omikron" dalğasında yoluxan, sağalan, peyvənd olan, olmayan hər kəs ona yoluxacaq. Amma bu ştam öz sahibini, yəni xəstəni öldürməyəcək".

## Üçüncü peyvənddən sonra tam "toxunulmazlıq" yarana bilər

Koronavirusun yeni ştamlarının ortaya çıxması COVID-19-a qarşı peyvəndlərin yeni növlərə qarşı dözümlülüyünün yoxlanılmasını zəruri edir. Hazırda şirkətlər "Omikron"a qarşı peyvəndin hazırlanmasında, eləcə də qorunmanın səviyyəsinin və müddətinin artırılmasında irəliləyiş əldə etməyə çalışırlar. Onlar bu məqsədlərinə 2022-ci ilin mart ayına qədər nail olacaqlarını düşünürlər.

İlkin laboratoriya tədqiqatları göstərib ki, "Pfizer-BioNTech" COVID-19 peyvəndinin üç dozası "Omikron" variantını neytrallaşdırır, iki doza isə neytrallaşdırmaya əhəmiyyətli dərəcədə təsir edir.

"BioNTech"in baş direktoru və həmtəsisçisi Uğur Şahinin sözlərinə görə, ilkin məlumatlar üçüncü dozanın "Omikron"un da səbəb olduğu istənilən şiddətli xəstəliklərdən kifayət qədər qoruya biləcəyini göstərir: "Dünyada peyvəndləmə işlərinin genişləndirilməsi bizə insanları daha yaxşı qorumağa və qış mövsümündən çıxmağa kömək edə bilər. İnanırıq ki, hazırkı peyvəndlə müqayisədə daha uzunmüddətli qorunma immuniteti yaratmağa kömək edən, "Omikron" tərəfindən törədilən COVID-19 xəstəliyinə qarşı yüksəksəviyyəli qorunmanı təmin edən uyğunlaşdırılmış vaksin hazırlaya biləcəyik".

Almaniyanın səhiyyə naziri Karl Lauterbax isə belə fikirləşir ki, "Omikron"la mübarizə üçün peyvəndin üçüncü dozasının insanlara vurulması lazımdır: "Hazırda biz mümkün qədər çox "Buster" peyvənd almalıyıq. Yalnız üçüncü peyvənddən sonra virusa qarşı demək olar ki, tam "toxunulmazlıq" yarana bilər".

## Yeni qadağalar

"Omikron" variantının sürətlə yayılması ilə əlaqədar Böyük Britaniyada Baş nazir Boris Consonun "B Planı" adlandırdığı yeni tədbirlər qüvvəyə minib. Yeni qərarlara əsasən, ictimai yerlərdə, o cümlədən teatr və kinoteatrlarda maskaların taxılması məcburidir. Konsert salonları və gecə klublarına giriş üçün COVID pasportu tələb ediləcək. Conson qeyd edib ki, COVID-19 pasportunun alınması üçün iki doza peyvəndin olunması kifayətdir, lakin "Buster" dozalarının sayı artdıqca bu məsələ yenidən nəzərdən keçiriləcək.

COVID-19-a yoluxma hallarının davamlı olaraq artacağından ehtiyatlanan Şotlandiya isə yenidən "distant" iş şəraitinə qayıdıb. O, ən azı, gələn ilin yanvar ayının ortalarınadək işçilərin mümkün olan qədər evdən işləyəcəklərini elan edib.

***İlhamə İSABALAYEVA, "Azərbaycan"***







# Azərbaycanın QHT nümayəndələri Suqovuşan qəsəbəsinə və Talış kəndinə səfər ediblər





Azərbaycanda fəaliyyət göstərən 100-dən çox qeyri-hökumət təşkilatının nümayəndələri Tərtər rayonunun işğaldan azad edilmiş Suqovuşan qəsəbəsinə və Talış kəndinə səfər ediblər.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məsul əməkdaşı, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının sədr müavini Vüsal Quliyev 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin ölkəmizə qarşı törətdiyi növbəti hərbi təxribata cavab olaraq, Azərbaycan Silahlı Qüvvələrinin əks-hücum əməliyyatlarına başladığını, 44 gün davam edən müharibə nəticəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun şanlı Qələbə qazandığını bildirib. Deyib ki, müharibə dövründə Ermənistan siyasi və hərbi rəhbərliyi döyüş meydanındakı məğlubiyyətləri ilə barışmayaraq cəbhə xəttindən kənarda yerləşən şəhər və rayonlarımızdakı mülki əhalini hədəf seçib, müxtəlif növ ağır silahlarla, o cümlədən artilleriya və ballistik raketlərlə atəşə tutaraq insanlıq əleyhinə cinayətlər törədib.

Qeyd olunub ki, Tərtər şəhəri də həmin günlərdə dayanmadan düşmən atəşinə tutulub. Tərtərə olan hücumlar nəticəsində çoxlu sayda mülki şəxs həlak olub və yaralanıb. O, həmçinin 30 ilə yaxın müddətdə Suqovuşan və Talışın, habelə digər işğaldan azad olunmuş ərazilərin Ermənistan tərəfindən kütləvi şəkildə minalandığını vurğulayıb. "Minaların mövcudluğu insanların yaşamaq hüququna təhdid olmaqla yanaşı, məcburi köçkünlərin həmin ərazilərə geri qayıtmasına böyük maneə törədib, bərpa və quruculuq planlarımızı əhəmiyyətli dərəcədə ləngidib", - deyə V.Quliyev bildirib.

Sonra QHT-lərə işğal dövründə ermənilərin törətdikləri vandalizm aktları, hazırda Talış və Suqovuşanda həyata keçirilən bərpa-yenidənqurma layihələri barədə məlumat verilib. Səfər iştirakçıları erməni işğalçıları tərəfindən viran qoyulmuş Talış kəndində yerləşən rus-pravoslav kilsəsini də ziyarət ediblər.

Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov QHT nümayəndələrinə Suqovuşan qəsəbəsində həyata keçirilən layihələr barədə məlumat verib. Bildirib ki, Qarabağımızın digər işğaldan azad edilmiş guşələri kimi, Suqovuşana da həyat yenidən qayıdır. Qəsəbə işğaldan azad edildikdən sonra burada quruculuq, təmir-bərpa işlərinə start verilib. İlk olaraq ərazinin mina və partlamamış sursatlardan təmizlənməsinə başlanılıb. Qısa vaxtda uzunluğu 28,8 kilometr olan Tərtər-Çaylı-Suqovuşan-Talış avtomobil yolu ikinci texniki dərəcəyə uyğun yenidən qurulub. Suqovuşana 110/35/6 kilovoltluq "Tərtər" Yarımstansiyasından 35 kilovoltluq yeni elektrik veriliş xətti çəkilib, qəsəbənin daxili şəbəkəsində 0,4 kV hava xətləri bərpa edilib. Qəsəbə elektrik enerjisi ilə təmin olunub. Gücü 4,8 meqavat olan "Suqovuşan-1" və gücü 3 meqavat olan "Suqovuşan-2" stansiyalarında təmir-bərpa işləri aparılıb. Tərtər və ətraf rayonların suvarma suyu ilə təmin olunmasında mühüm əhəmiyyətə malik Suqovuşan su anbarında təmir işləri həyata keçirilib.

Diqqətə çatdırılıb ki, 1976-cı ildə istismara verilən və ümumi həcmi 5,86 milyon kubmetr olan Suqovuşan su anbarından Tərtər, Ağdərə, Goranboy, Yevlax, Bərdə, Ağdam və Ağcabədi rayonlarının ümumilikdə 96 min 217 hektar torpaq sahələrinin suvarma suyu ilə təmin edilməsi nəzərdə tutulub. 28 il ərzində Suqovuşan su anbarı işğal altında olduğundan torpaq sahələrinin su təminatında ciddi çətinliklər yaranmışdı. Bundan başqa, suyun buraxılmaması Tərtərçayda kəskin ekoloji problemlər də yaratmışdı. Suqovuşanın işğaldan azad olunması ərazidə ekoloji tarazlığın bərpa edilməsi ilə yanaşı, uzun illərdən bəri su təminatı çətin olan bu ərazilərə suyun verilməsi, burada gələcəkdə əkinlərin davamlı aparılmasına, su qıtlığının aradan qaldırılmasına, kənd təsərrüfatında yüksək məhsuldarlığın əldə edilməsinə təminat yaradıb. Artıq Suqovuşan su anbarından Tərtərçaya suyun buraxılması nəticəsində Tərtər, Goranboy, Bərdə və Yevlax rayonlarına suyun verilməsi təmin olunub. Bu isə o deməkdir ki, ermənilərin ekoloji terroru səbəbindən 30 ilə yaxındır ki, susuz qalan torpaqlara yeni həyat gəlib.

Suqovuşan qəsəbəsi və Talış kəndlərini ziyarət edən qonaqlar daha sonra Tərtər şəhərinə gəliblər. Səfər iştirakçılarına 44 günlük Vətən müharibəsi dövründə Ermənistan silahlı bölmələri tərəfindən rayonun yaşayış məntəqələrinin atəşə tutulması nəticəsində dəymiş zərər barədə məlumat verilib.

Bildirilib ki, müharibə zamanı Tərtər şəhəri də daxil olmaqla, rayonun 40 yaşayış məntəqəsinə 16 min 277 tank, top, qrad, minaatan mərmisi, 21 qadağan olunmuş raket atılıb. Nəticədə Tərtərdə 82 çoxmərtəbəli yaşayış binasına, 5949 fərdi evə, 184 sahibkarlıq və 301 qeyri-yaşayış obyektinə, 17 məktəbə, 11 uşaq bağçasına, 1 texniki peşə məktəbinə, 1 musiqi məktəbinə, 30 inzibati binaya və 20-yə yaxın mədəniyyət və səhiyyə müəssisəsinə ziyan dəyib.

Sonda Azərbaycan QHT-lərinin Tərtər rayonunun işğaldan azad edilmiş Suqovuşan qəsəbəsi və Talış kəndlərinə səfərinin nəticələrinə dair bəyanat qəbul edilib. QHT-lər beynəlxalq hüququn norma və prinsiplərindən irəli gələn öhdəliklərin vicdanla icrasının və qarşılıqlı anlaşmanın əhəmiyyətini vurğulayaraq Ermənistan siyasi-hərbi rəhbərliyinin təcavüzkar və işğalçı siyasəti nəticəsində törədilmiş insan hüquqları pozuntularının, o cümlədən yaşamaq hüququnu kobud şəkildə pozmaqla regionda törətdiyi müharibə və insanlıq əleyhinə cinayətlər ilə bağlı faktların beynəlxalq təşkilatlar tərəfindən araşdırılmasına, minalanmış ərazilərin xəritələri və digər zəruri məlumatların Azərbaycana təqdim edilməsi üçün Ermənistana təsir göstərməyə, Azərbaycana işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsinə dəstək verməyə, sülh naminə birgə səylər göstərməyə çağırış ediblər.

# REGİONLAR



## Kənd təsərrüfatında innovativ sahibkarlıq üçün bacarıqların artırılması ilə bağlı yeni layihəyə başlanıb

Aqrar İnnovasiya Mərkəzinin və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) təşkilatçılığı ilə "Kənd təsərrüfatında innovativ sahibkarlıq üçün bacarıqların artırılması" proqramının açılış konfransı keçirilib. Tədbirdə kənd təsərrüfatı nazirinin müavini Elçin Zeynalov, Almaniyanın Azərbaycandakı səfiri Volfqanq Maniq, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin Özəl sektorun inkişafı və peşə təhsili və təlimi layihəsinin rəhbəri Yuliya Bajenova, həmçinin nazirliyin aidiyyəti qurumlarının rəhbərləri iştirak edib.

Tədbirdə çıxış edən kənd təsərrüfatı nazirinin müavini Elçin Zeynalov dövlət-özəl sektor əməkdaşlığı və gənclərin aqrar sahibkarlığa marağının artırılması, layihənin mahiyyəti və aqrar sahəyə verə biləcəyi töhfədən bəhs edib. Konfrans çərçivəsində kənd təsərrüfatının müxtəlif sektorlarında aqrar innovasiyaların rolu və dəstək mexanizmləri ilə bağlı panel müzakirəsi keçirilib. Paneldə "Heyvandarlığın müasir problemləri və innovativ yanaşmalar", "Aqrar innovasiyaların kənd təsərrüfatında rolu", "Tərəvəzçilik sahəsində aqrar innovasiyaların tətbiqi" mövzularında təqdimatlar olub. Həmçinin tədbirdə aqrar innovasiyaların təbliği məqsədilə bir sıra innovativ avadanlıqlar, o cümlədən aqrodron, aqrorobotlar və alternativ yem bitkiləri nümayiş edilib.

Qeyd edək ki, sözügedən proqramın əsas məqsədi aqrar innovasiyaların təşviq edilməsi, bu sahədə ideyası və layihəsi olan startap və sahibkarlara təlim və mentorluq xidmətlərinin göstərilməsi vasitəsilə biznes məsləhət xidmətlərinin inkişaf etdirilməsidir. Proqram çərçivəsində Aqrar İnnovasiya Mərkəzinin, həmçinin nazirliyin aidiyyəti qurumlarından seçilmiş 20 nümayəndə "Layihələrin idarə edilməsi", "Sahibkarlıq və startaplar", "Biznes fəaliyyətləri və maliyyə", "Təqdimat bacarıqları" mövzuları üzrə hazırlanan təlimlərlə bağlı tədbirlər planına uyğun olaraq Təlimçilərin Təliminə (ToT) cəlb ediləcək. Proqramı uğurla başa vuran nümayəndələr Azərbaycanın müxtəlif iqtisadi zonalarını təmsil edən və aqrar innovasiya platformasına təqdim edilən innovativ ideya müəlliflərinə təlimçi və mentor kimi dəstək göstərərək onların ideyalarının inkubasiya mərhələsinə daxil olmasına töhfə verəcək. İnkubasiya mərhələsinə daxil olmuş 20 ən yaxşı layihə seçilərək yekun mərhələdə iştirak etmək şansı qazanacaq.

Xatırladaq ki, "Kənd təsərrüfatında innovativ sahibkarlıq üçün bacarıqların artırılması proqramı" Almaniya Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyi (BMZ) tərəfindən maliyyələşdirilən və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) tərəfindən icra edilən "Cənubi Qafqazda Özəl Sektorun İnkişafı və Peşə Təhsili və Təlimi" layihəsi çərçivəsində həyata keçirilir.




Payızlıq əkinlərin Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində bəyanı prosesinin sürətləndirilməsi məqsədilə rayonlarda məlumatlandırma sessiyaları davam edir.

## Bölgələrdə məlumatlandırma sessiyaları davam edir

### 2025-ci ildən aqrar subsidiyalar yalnız daşınmaz əmlakın dövlət reyestrindən çıxarış əsasında veriləcək

Son üç həftə ərzində 30-dan artıq rayonda keçirilmiş sessiyalarda Aqrar Subsidiya Şurasının qəbul etdiyi qərarlar, bəyan prosesinin sürətləndirilməsinin zəruriliyi, torpaq nümunələrinin aqrokimya laborarotiyalarına təqdim olunması proseduru, aqrar sığorta mexanizminin üstünlükləri, fermerlərin torpaq üzərində mülkiyyət hüquqlarının rəsmiləşdirilməsi və digər məsələlər barədə ətraflı məlumat verilib.

Neftçala və Salyan rayonlarında keçirilən görüşlərdə çıxış edən Kənd Təsərrüfatı Nazirliyinin Aparat rəhbəri Rəfael Quliyev bildirib ki, son illər aqrar sahədə aparılan islahatların əsas istiqamətlərindən biri fermerlərə dövlət dəstəyi mexanizminin elektronlaşması, subsidiyaların Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi üzərindən verilməsidir. Subsidiyalar artıq çoxsaylı kağız sənəd toplamadan, yalnız fermerin təqdim etdiyi torpaq sənədləri və əkin bəyanı əsasında verilir. Dövlət dəstəyindən daha çox fermerin yararlana bilməsi üçün torpaq üzərində mülkiyyət hüququnu təsdiqləyən sənədlərin alınması vacibdir və bu istiqamətdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 7 oktyabr tarixində "Torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı bəzi məsələlər haqqında" fərman verilib.

Fərmana əsasən, rayon aqrar islahat komissiyalarının qərarları ilə təsdiq edilmiş siyahılara əsasən ləğv edilmiş sovxoz və kolxozların özəlləşdirilən torpaqlarından pay almış, lakin bu torpaqlar üzərində mülkiyyət hüququ rəsmiləşdirilməmiş şəxslərin hüquqlarının onların müraciəti əsasında dövlət büdcəsinin vəsaiti hesabına daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınması təmin ediləcək. Bu məqsədlə daşınmaz əmlakın dövlət reyestrində torpaq islahatı ilə əlaqədar tərtib olunan və müvafiq rayon aqrar islahat komissiyaları tərəfindən təsdiq olunmuş hər bir vətəndaşa (ailəyə) düşən torpaq payının bölgüsünü əks etdirən kompleks yerquruluşu layihəsində göstərilən ölçüdə torpaq sahəsi üzərində hüquqlar qeydiyyata alınır. Fərmanda qeyd olunur ki, 2025-ci il yanvarın 1-dən etibarən əkin sahələrinin istifadəçilərinə aqrar sahədə subsidiyalar torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüquqlarına dair daşınmaz əmlakın dövlət reyestrindən çıxarış əsasında veriləcək. Bu səbəbdən vətəndaşlar dövlətin yaratdığı imkanlardan faydalanaraq torpaq üzərində mülkiyyət hüquqlarını rəsmiləşdirməlidirlər. Görüşdə fərmanın icra mexanizmi ilə bağlı suallar ətraflı cavablandırılıb.

Qeyd olunub ki, payızlıq əkinlərin bəyanı üçün müəyyən edilmiş müddət dekabrın 30-da başa çatır və fermerlər bu müddətə kimi öz əkinlərini EKTİS-də bəyan etməlidir. Reqlamentə əsasən, payızlıq əkinlərə görə subsidiyalar fevral ayından başlayaraq vətəndaşların "Fermer kart"ına köçürüləcək. Bu səbəbdən payızlıq səpini başa çatdırmış vətəndaşların son müddəti gözləmədən əkinlərin bəyan etməsi, 10 hektardan artıq sahəsi olan fermerlərin öz əkinləri üzrə sığorta müqaviləsi bağlaması, 5 hektardan çox sahəsi olan fermerlərin isə torpaq nümunələrindən analiz verməsi vacibdir.

## Payızlıq səpin davam edir

❖ Qax rayonunun təsərrüfatlarında gələn ilin məhsulu üçün 13 min 550 hektar sahədə payızlıq dənli bitkilərin səpini proqnozlaşdırılır.

Hazırda təsərrüfatlarda payızlıq dənlilərin səpini başa çatmaq üzrədir. Torpaq mülkiyyətçiləri indiyədək 4 min 408 hektarı dən üçün arpa, 8 min 760 hektarı buğda olmaqla, 13 min 168 hektar sahəyə toxum səpiblər.

Qax Dövlət Aqrar İnkişaf Mərkəzindən bildirilib ki, səpin aparılacaq sahələrin şumlanması artıq başa çatdırılıb. Ümumilikdə, səpin kampaniyasına 200-dək traktor, 55 ədəd toxumsəpən aqreqat və digər texnikalar cəlb edilib.

Qeyd edək ki, builki mövsümdə rayonda 14 min 91 hektar sahənin məhsulu biçilib, 45 min 681 ton taxıl istehsal olunub. Hər hektardan orta məhsuldarlıq 32,4 sentner təşkil edib. Taxıl istehsalı əvvəlki illə müqayisədə 7 min 289 ton artıb.

❖ Biləsuvarda builki payızlıq səpinlərində yüksək reproduksiyalı toxumlardan istifadə olunur. Rayonda 34 min hektar sahədə payızlıq taxıl səpini proqnozlaşdırılır.

Rayon taxılçılarına göstərilən dövlət qayğısı sayəsində bu vacib ərzaq məhsulunun istehsalına son illər maraq xeyli artıb. Hər il rayonda 30 min hektardan artıq sahədə dənli bitkilər əkilib-becərilir. Təkcə ötən il taxıl istehsalçılarına dövlət tərəfindən 5 milyon 333 min manatdan çox subsidiya ödənilib. Hazırda növbəti məhsul üçün oktyabr ayından başlanılan payızlıq səpinlər uğurla davam edir. Fermerlərin builki hədəfi 20 min hektar sahədə buğda, 14 min hektar sahədə isə arpa səpinini həyata keçirməkdir. Bu günədək 29 min hektar sahədə səpin işləri başa çatıb. Əkilən sahələrin təxminən 45-50 faizində çıxış əldə edilib.

Fermer Rakif Bayramov deyib: "Oktyabrın 25-dən səpin aparırıq. Mənim demək olar ki, əkinlərim bu gün yekunlaşır. Müəyyən qədər suvarmışıq, əla çıxış da almışıq. Son illərdə əsasən "Dəyanətli" sortunu əkirəm. Məhsuldarlığı yüksək olduğuna görə, bu il 20 hektar sahədə əkmişəm".

Respublika Toxumçular Assosiasiyasının idarə heyətinin üzvü, ekspert Mirsahib Zəkiyevin sözlərinə görə, bu il ölkə üzrə fəaliyyət göstərən 265 dövlət və özəl toxum təsərrüfatı 75 min hektar aprobasiya olunmuş sahələrdən 127 min tondan çox mənşəyi bilinən, yüksəkkondisiyalı toxum istehsal edib. Tədarük edilən məhsuldar taxıl sortlarının 1400 tona yaxını biləsuvarlı toxumçuların payına düşür.

Məlumatları AZƏRTAC yayıb.

◆ İlə yekun vurulur




## Torpaq işləyəni ruzisiz qoymur

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramları bölgələrimizin hərtərəfli inkişafına meydan açmışdır. Dinamik xarakter almış iqtisadi irəliləyiş bu il daha ciddi uğurlarla əlamətdar olmuşdur. Bu, Göygöl rayonunun timsalında da aydın görünür.

Göygöl rayonu təkcə füsunkar təbiəti ilə deyil, işgüzar insanları ilə də seçilir. Hər ili müsbət göstəricilərlə yola salan göygöllülər üçün cari il də istisna olmamışdır. Bu il rayonda ümumi məhsul istehsalı 4,8, o cümlədən sənaye məhsulları üzrə 3,5, kənd təsərrüfatı məhsulları üzrə 2,1, əsas kapitala yönəldilmiş vəsait üzrə 38,1 dəfə artmışdır. Sahibkarlığın İnkişafı Fondu tərəfindən cari il 23 layihə üçün yerli iş adamlarına 792,5 min manat güzəştli kredit verilmişdir.

Rayonda abadlıq və yenidənqurma işlərinə ciddi diqqət yetirilir. Olimpiya idman kompleksi, 151 çarpayılıq mərkəzi rayon xəstəxanası, Qarabağ əlilləri və şəhid ailələri üçün ümumilikdə 52 mənzilli 2 yaşayış binası və 8 fərdi yaşayış evi, eləcə də 2 modul tipli yeni məktəb inşa edilmiş, Bayraq meydanı, Bayraq muzeyi kompleksi, gənclər, uşaq əyləncə, uşaq yaradıcılıq və texniki yaradıcılıq mərkəzləri və yay kinoteatrı, müasir tələblərə cavab verən digər sosial obyektlər istifadəyə verilmişdir.

Real sektora gəldikdə, Göygöl Şərab zavodu nəzdində spirt istehsalı müəssisəsi yaradılmış, "Göygöl Beton" MMC-nin nəzdində tutumu 3940 kubmetr olan soyuducu kamera, "Çiçəkli" kiçik su elektrik stansiyası istifadəyə verilmiş, respublika süni mayalanma mərkəzinin maddi-texniki bazasını möhkəmləndirmək üçün müasir tələblərə cavab verən 40 başlıq kompleksin tikintisi başa çatdırılmış, 18 kilometrlik yeni Zod-Çaykənd-Qarabulaq-Quşçu-Sarısu, 10,5 kilometrlik Xaqani-Cümşüdlü-Haçaqaya və 18 kilometrlik Çaylı-Pənahlılar-Dozular avtomobil yollarına asfalt döşənmişdir. Bunlardan əlavə, Dozular kəndində torpaq sürüşməsi ilə əlaqədar dəymiş ziyanın aradan qaldırılması məqsədi ilə 42 yaşayış evi, klub və tibb məntəqəsi üçün binalar inşa edilmiş, məcburi köçkünlər üçün şəhər ərazisində 130 ailəlik 4 mərtəbəli 3 bina, Yaponiyanın Azərbaycandakı səfirliyi tərəfindən Şəhriyar və Danayeri kəndlərində tibb məntəqələri tikilmiş, Balçılı kənd sahə xəstəxanası əsaslı təmir olunmuşdur.

Əhalinin mavi yanacağa olan tələbatının ödənilməsi istiqamətində də xeyli iş görülmüşdür. Rayon mərkəzi də daxil olmaqla 33 yaşayış məntəqəsi qazlaşdırılmış, Üçtəpə kəndində və Firuzabad qəsəbəsində, eləcə də Mollacəlilli kəndində qaz təchizatının yaxşılaşdırılması üçün əsas daşıyıcı ortatəzyiqli boru xətləri dəyişdirilmişdir. Həmçinin Toğanalı kəndinin qazlaşdırılması işlərinə başlanılmışdır. Artıq müxtəlif diametrli 368 abonentin mənzilinə qaz sayğacı da quraşdırılmışdır. Bundan başqa, Göygöl şəhərinin yeni salınmış yaşayış massivinə yeni qaz xətti çəkilmişdir.

Rayonun su təchizatı və kanalizasiya sisteminin yaxşılaşdırılması da diqqət mərkəzində saxlanılmışdır. Bu məqsədlə 185,4 kilometr su, 161,1 kilometr kanalizasiya xətti çəkilmiş, 6 su anbarı, 3 kanalizasiya nasos stansiyası tikilmişdir. Çaylı kəndində 400, Dozular, Çaylı və Pənahlılar kəndlərində 300 hektar əkin sahəsinin suvarılmasının yaxşılaşdırılması üçün isə qapalı boru xətləri çəkilib istifadəyə verilmişdir. Bununla yanaşı, cari il rayon ərazisində 10 subartezian quyusu qazılmışdır. Həmin hesaba Hacıməlik qəsəbəsində, Xəqani, Balçılı, Nadil, Qırıqlı, Quşqara, Haçaqaya kəndlərində əhalinin su təminatı yaxşılaşmışdır.

Göygöl rayonunda da əhalinin əsas gəlir yeri aqrar sektordur. Məhz bunun nəticəsidir ki, kənd təsərrüfatının bütün sahələri üzrə yüksək göstəricilərə nail olunur. Cari mövsüm 4361 hektarda buğda, 2763,5 hektarda arpa, 25,5 hektarda qarğıdalı əkilmişdir. Yüksək aqrotexniki qulluq nəticəsində əvvəlki ildəkindən çox, yəni 13847,6 ton buğda, 8269,5 ton arpa, 51 ton qarğıdalı tədarük olunmuşdur. Hər hektardan nəzərdə tutulduğundan 7,64 sentner çox buğda, 2,42 sentner çox arpa, 1,51 sentner çox qarğıdalı götürülmüşdür. Hətta rayonda elə fermerlər olmuşdur ki, hər hektardan 40 sentnerdən çox taxıl biçmişdir.

Hazırda rayonda gələn ilin məhsulu üçün hazırlıq işləri görülür. Rayon ərazisində 2022-ci ilin məhsulu üçün 6465 hektar sahədə şum qaldırılmışdır. Qaldırılmış şumun 5742 hektarında səpin aparılmışdır. Aparılmış səpinin 3856 hektarı buğda, 1836 hektarı arpa, 50 hektarı yaşıl yemdir.

Göygöldə heyvandarlıq üçün əlverişli şərait var. Bu imkanı nəzərə alan fermerlər heyvandarlığa böyük maraq göstərirlər. Hazırda rayonda 20,5 min baş qaramal, 124,8 min baş davar saxlanılır. Lakin heyvandarlar bu rəqəmi son hədd hesab etmirlər.

Vaxtilə respublikamızda böyük üzümçülük rayonlarından olan Göygöldə də məlum səbəblərdən bu sahə demək olar ki, tamamilə məhv edilmişdi. Prezidentin təşəbbüsü və gördüyü işlər sayəsində Göygöldə də üzümçülük dirçəlmiş və sahənin maddi-texniki bazası möhkəmləndirilmişdir. Təkcə son iki ildə rayonda 736,7 hektar yeni üzüm bağı salınmışdır. Bunun 706,2 hektarı əsasən Fransadan gətirilən texniki, 38,5 hektarı süfrə üzümü sortlarıdır. Bu il plantasiyalardan 4200,6 ton üzüm toplanmışdır.

Hazırda Göygöldə yetişdirilmiş kənd təsərrüfatı məhsullarının son yığım dövrüdür. Kənd adamları yetişirdikləri məhsulları yığıb tədarük etmək üçün əllərindən gələni əsirgəmir, paralel olaraq gələn ilin məhsulunun təməlini qoyurlar. İndi hər bir göygöllünün arzusu həm ölkə iqtisadiyyatına xeyir vermək, həm də ailə büdcəsinin təminatını ödəməkdən ibarətdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Arx və kanallar lildən təmizlənir

Ağstafa Suvarma Sistemləri İdarəsi rayonun 19507 hektar əkin sahəsinin suvarma suyu ilə təminatına xidmət edir. Bu sahələrin suvarılması zamanı su itkisinin qarşısını almaq məqsədilə torpaq kanalların beton üzlüklə əvəz olunması işləri hər il davam etdirilir.

AZƏRTAC xəbər verir ki, rayonun Poylu, Dağkəsəmən və Xətai kəndlərinin 1100 hektara yaxın əkin sahəsini suvarma suyu ilə təmin edən 14,5 kilometr uzunluğunda Poylu arxının beton üzlüyə alınması üçün layihə-smeta sənədləri hazırlanıb və bu il 1,2 kilometr hissəsində arxın beton üzlüyə alınması işlərinə başlanılıb. Artıq yaxın günlərdə həmin hissədə işlər tam yekunlaşacaq.

Ümumilikdə Ağstafa Suvarma Sistemləri İdarəsinin balansında 825 kilometr uzunluğunda suvarma kanalları var. Bunun 37 kilometri magistral kanalıdır. Kanal və arxların 167 kilometri beton kanallar, 8,4 kilometri qapalı boru şəbəkəsi və 650 kilometri torpaq məcralı kanallardır.

Arx və kanallarda mexanizmlərlə 460 kilometr hissədə 343 min kubmetr, əl ilə isə 2,14 min kubmetr lildən təmizləmə işləri aparılıb. 53730 kvadratmetr hissə isə kol-kosdan təmizlənib. Həmçinin bu il 32 ədəd hidrotexniki qurğu, 7 ədəd hidrometrik post, 2 ədəd nasos stansiyası və 4 kilometr uzunluqda beton kanallar artıq təmir olunub. İdarənin balansında olan 3 ədəd nasos stansiyasının ikisində cari təmir işləri aparılıb, Qıraq Kəsəmən nasos stansiyasında isə əsaslı təmir üçün layihə-smeta sənədləri hazırlanıb.

Qeyd edək ki, rayonun dörd suvarma mənbəyi var. Suvarma əsasən Ağstafaçay su anbarı, Ağ Göl su mənbəyi, Həsənsu çayı və subartezian quyuları vasitəsilə həyata keçirilir. Göstərilən mənbələrdən Həsənsu çayına mənfur qonşularımız tərəfindən su buraxılmaması səbəbindən suvarmada çətinlik yaşanır. Bu səbəbdən rayon ərazisində son illər yeni subartezian quyuları qazılaraq istifadəyə verilir. Hazırda rayon ərazisində 4300 hektara yaxın əkin sahəsinin suvarılması üçün 266 ədəd subartezian quyusu vasitəsilə suvarma aparılır.

Prezident İlham Əliyevin sərəncamına əsasən Aşağı Göycəli kəndində 1, Göycəli kəndində 2, Köhnəqışlaq kəndində 1 və Tatlı kəndində 2 subartezian quyusu qazılaraq istifadəyə veriləcək. Həmin subartezianların qazılması nəticəsində 100 hektara yaxın ərazinin suvarılması yaxşılaşacaq.

## SDU-da "Nizami Gəncəvi ili" çərçivəsində kitab sərgisi keçirilib



Sumqayıt Dövlət Universitetində (SDU) Nizami Gəncəviyə həsr olunmuş "Sözün gücü - Nizami dühası" adlı kitab sərgisi keçirilib.

Universitetin elmi və şəhərin Səməd Vurğun adına mərkəzi kitabxanalarının birgə təşkil etdiyi tədbirdə SDU-nun müəllimləri, tələbələri və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Sərgidə Nizami Gəncəvinin məşhur "Xəmsə"sinə daxil edilən poemalar və şair haqqında yazılmış əsərlər iştirakçılara təqdim olunub. SDU Elmi Şurasının qərarı ilə şairin anadan olmasının 880 illik yubileyi çərçivəsində çap olunan "Eşq və idrak şairi" adlı məqalələr toplusu və Filologiya fakültəsinin müəllimi Afaq Qəniyevanın "Nizami Gəncəvinin musiqi dünyası" adlı kitabı da həmin əsərlər arasında yer alıb.

Tədbirdə həmçinin universitetin müəllim və tələbələri şairin şeirlərini söyləmiş, əsərləri əsasında tamaşalar göstərilmiş, Nizami yaradıcılığının müxtəlif dövrləri müzakirə olunmuşdur.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Tovuzlu fermerə 5360 manat sığorta haqqı ödənildi

Tovuz rayonunun Alakol kəndində fermer Ədalət Əsgərova məxsus heyvandarlıq təsərrüfatına dəyən zərər Aqrar Sığorta Fondu tərəfindən qarşılanıb.

AZƏRTAC xəbər verir ki, fermer bir neçə ay əvvəl təsərrüfatındakı südlük cins inəkləri aqrar sığorta vasitəsilə 3 il müddətinə sığortalayıb. Aqrar sığorta qaydalarına əsasən fermer hesablanmış sığorta haqqının yalnız 50 faizini ödəyib, qalan 50 faizini isə dövlət ödəyib.

Aqrar Sığorta Fondunun nümayəndəsi Əli Əhmədov bildirib ki, bir neçə gün əvvəl baş verən hadisə nəticəsində təsərrüfatdakı sığortalanmış heyvanlardan birində xəstəlik aşkar edilib. Aqrar Sığorta Fonduna müraciətdən sonra müstəqil aqrar sığorta ekspertləri dərhal təsərrüfata gələrək heyvana baxış keçiriblər və onun məcburi kəsimə verilməsi qərara alınıb.

İnəyin qiyməti 5955 manat olduğundan 10 faiz azadolma məbləği çıxılaraq, 5360 manat fermerin bank hesabına köçürülüb.

Tələf olan inəyə görə sığorta ödənişi alan təsərrüfatın sahibi Ədalət Əsgərov aqrar sığorta mexanizminin işindən razılığını bildirib: "İnəklərimizi bir neçə ay əvvəl sığorta etmişdik, həmin vaxt da bizə dövlət dəstək göstərmişdi, sığorta haqqının yarısını ödəmişdi. Hadisə baş verdikdə qaydalara uyğun olaraq fonda xəbər verdik və araşdırmalardan sonra bizə ödəniş edildi. Tələf olan heyvanın dəyərinin 90 faizi ödənildi. Aqrar sığortanın fəaliyyətindən çox razıyam və iş adamlarına, təsərrüfat sahiblərinə də bundan faydalanmağı tövsiyə edirəm".

Qeyd edək ki, Azərbaycanda dövlət dəstəkli aqrar sığorta 2020-ci ilin noyabrından fəaliyyətə başlayıb. İndiyədək bütün ölkə ərazisində minlərlə kənd təsərrüfatı heyvanı sığorta edilib. Baş verən sığorta hadisələrinə görə isə 105 min manatdan artıq ödəniş olunub.

Hazırda aqrar sığorta vasitəsilə südlük inək və camışlar sığortalanır. Yaxın vaxtlardan etibarən isə sığortaya alınan heyvanların siyahısı genişlənəcək, buraya ətlik mal-qara, eləcə də xırdabuynuzlu heyvanlar - keçi və qoyun təsərrüfatları da əlavə olunacaq.

Dövlət dəstəkli olduğuna görə, sığorta haqqının 50 faizi dövlət tərəfindən ödənilir.




# Heyvanların yerləşdirildiyi ilk qapalı məkan

**Təbiətdə mövcud olan canlıları görmək üçün yalnız müəyyən bölgələrə üz tutmaq hər kəsin imkanlarına daxil deyil. Bu ideyadan yola çıxaraq şəkillərini gördüyümüz heyvanlarla canlı ünsiyyət qurmaq şəraitini yaradan zooparklar dünyanın bir çox ölkələrində mövcuddur. Bura vəhşi heyvanların ictimai nümayişi üçün nəzərdə tutulan yerlə yanaşı, həm də nəsli kəsilməkdə olan növlərin qorunub tədqiq oluna biləcəyi mərkəzlərdəndir.**



İlk zoopark Roma imperatoru I Frans Stefanın təşəbbüsü ilə yaradılıb. O, bu məkanın yalnız kral ailəsinin üzvlərinin istifadəsi məqsədilə tikilməsini əmr etmişdi. Avstriyanın paytaxtı Vyanada yerləşən Şönbrun sarayında inşasına başlanılan zoopark 1752-ci ildə tamamlanaraq qonaqların ixtiyarına verildi. Vaxt keçdikcə sorağı yayılan heyvanlar aləminin marağında olan insanların bura baş çəkməsinə icazə verildi. Belə şəxslər məkanı yalnız bazar günləri ziyarət edə bilərdilər. Bu təşəbbüsün ardınca Avropanın digər kral saraylarında da heyvanlar saxlanılmağa başlanıldı. Lakin belə yerlər müvəqqəti fəaliyyət göstərdikdən sonra bağlandı.

Vyana zooparkında isə işlər fərqli şəkildə irəliləyirdi. İmperator öldükdən sonra varis oğlu II Cozef heyvanların çeşidini artırdı. Yırtıcı heyvanların bir çox növləri buraya gətirilərək qapılar bütün ictimaiyyət üçün açıq elan edildi. Buna sübut parkın giriş qapısında yazılan şüar idi: “Onlara dəyər verənlər tərəfindən hər kəsə həsr olunmuş istirahət yeri”.

Buraya yerləşdirilən ilk yırtıcı heyvanlar fil, canavar və ayılar idi. XIX əsrdən etibarən isə onların sırasında kenquru, zürafələr də yer alırdı. İlk zürafənin zooparka gəlişi bir çox sahələrdə maraq yaratmışdı. Belə ki, saç düzümü, geyim, ayaqqabı, qab-qacaq, hətta tamaşalarda belə zürafədən ilhamlanaraq ərsəyə gətirilən işlərə rast gəlindi.

Parkda inkişafın sürətlə getdiyi zamanın Birinci Dünya müharibəsi dövrü ilə üst-üstə düşməsi modernləşməyə son qoydu. Burada işləyən təcrübəli heyvandarların hərbi xidmətə çağırılması nəticəsində heyvanlar diqqətsiz qaldı. Qida ehtiyatları, xüsusilə ət çatışmazlığı heyvanların ac qalmasına səbəb oldu. Buna görə parkın işçiləri mərhəmətsiz qərarlar vermək məcburiyyətində qaldılar. Onlar heyvanların bir qismini kəsib digərlərinə yedizdirdilər. Əslində, həmin vaxt qıtlıqdan əziyyət çəkən təkcə heyvanlar deyildi. İnsanların da güzəranı acınacaqlı vəziyyətdə idi. 1918-ci ildə bir əsgər zooparkdakı ağ ayını güllələmişdi. O, həbs olunarkən ayını hər gün 10 kiloqram ət yediyi üçün vurduğunu bildirmişdi. Əslində, heç ayıya ət də verilmirdi. O, balıq başları ilə qidalanırdı.

İkinci Dünya müharibəsində zoopark böyük ziyana düşdü. Bombardmanlar nəticəsində bir çox heyvanlar öldü, yalnız 300 heyvan müharibənin fəsadlarından qurtula bildi. Bütün dağıntılara baxmayaraq park məhv edilmiş bir çox alman zooparkından daha yaxşı vəziyyətdə idi. 1996-cı ildə isə UNESCO-nun Ümumdünya İrsi siyahısına daxil edildi. Son 20 ildə buradakı obyektlər yeniləndi və Avropanın ən yaxşı zooparkı statusunu qazandı. Mərkəzdə yerləşən Frans Stefanın sarı pavilyonu isə ziyarətçilər üçün kafe kimi fəaliyyət göstərir.

# Stolüstü oyunların yaranması



## *Ur Kral oyunu*

Əyləncəli vaxt keçirmənin maraqlı üsullarından biri də oyunlardır. Stolüstü oyunların ta qədim zamanlardan bəşəriyyətə məlum olduğu faktı aşkardır. Müxtəlif millətlərin maraq dairəsinə görə oyunlar da çeşidliliyi ilə fərqlənir. Dünyanın ilk yaranan ən qədim stolüstü oyunu “Ur Kral” oyunudur. Mesopotamiyada yaranan bu oyun eramızdan əvvəl 2400-cü ilə aiddir. Oyuna dair lövhələr Yaxın Şərq, o cümlədən Krit, hətta Şri-Lanka ərazilərindən də tapılıb.

Müasir nərd oyununu xatırladan “Ur Kral” oyunu fərqli qaydaları ilə seçilir. Bu qaydalar Babil astronomu tərəfindən mixi yazılarla gil lövhə üzərinə qeyd edilib. Lövhəni 1980-ci illərdə Britaniya muzeyinin kuratoru İrvinq Finkel taparaq yazıları tərcümə edib. Beləliklə, oyunun əsl oynanılma qaydaları bəlli olub.

Oyun lövhəsi 20 naxışlı damadan ibarətdir. Hər iki iştirakçı 7 ədəd fiqura sahib olur. Fiqurların yerinə müxtəlif əşyalardan da (qəpik, daş və s.) istifadə etmək mümkün olur. Gediş 4 ədəd piramida formalı daşla edilir. Bu daşların 4 küncündən ikisi ağ rənglidir. Atılan zaman hansı daşların ağ küncləri düzgün istiqamətə düşərsə, həmin say qədər də gediş edilir. Əgər fiqur olan damaya digəri gediş edib fiqurunu qoyarsa, bu zaman qarşı tərəfin fiquru oyundan çıxarılır. Əvvəldən sona qədər irəliləyib öz yolunu bitirən oyunçu qalib hesab olunur.

“Ur Kral” oyununun kifayət qədər məşhur olduğu halda sonralar unudulmasının əsl səbəbi təəssüf ki, məlum deyil. Müxtəlif fərziyyələrə görə, nərdin ilk versiyalarının formalaşması bu oyunu kölgədə qoymuşdu.

## *Şahmat*

Stolüstü oyunların ən məşhuru və seçilənlərindən biri də şahmatdır. Şahmatın geniş tarixi qədim oyunlardan olduğunu bir daha göstərir. Misirdə 4 min il əvvəl şahmat oynanıldığına dair sübutlar piramidalardan tapılıb. İndiki şahmat isə XI əsrdə Hindistana xas olan Çaturanqa oyunundan yaranıb. Deyilənlərə görə, bu oyunun meydana çıxması Hindistan kralı ilə bağlıdır. Kral müharibələrə maraq göstərdiyi üçün daim hücumlar edir, xalq da bu şəraitdə yaşamaqdan təngə gəlir. Sisa adlı müdrik bir adam bu oyunu hazırlayıb krala təqdim edir. Burada olan fiqurlar isə elə hind ordusunu təmsil edir.

Oyundakı savaş ab-havası da buradan qaynaqlanır. Diqqətlə nəzər yetirdikdə görünür ki, oyun əsnasında istifadə olunun fiqurlardan müharibələr zamanı da istifadə edilib. Atlar, fillər, piyadalar, şah və vəzir qarşılıqlı olaraq yarışırlar. Onları idarə edən oyunçulardan hansı daha strategiyalı gedişlər edərsə, qalib də o olurdu.

Şahmat haqqında ilk yazılı mənbələr Hindistanda mövcuddur. Sonrakı dövrlərdə Avropa və Asiyaya yayılaraq nəticədə formalaşmış bir oyuna çevrilib. Lakin həmin zamanda oyunun qumarla əlaqələndirilməsi din xadimləri arasında gərginlik yaratmışdı. Onlar



oyunun qadağan olunması üçün addımlar atırdılar. Hətta Fransa kralı IX Luizin şahmatın oynanılmasını ölkəsində qadağan etməsinə baxmayaraq oyunun populyarlığı qalib gəlmişdi.

Şahmat qaydalarına aid ilk kitab 1497-ci ildə Lusena tərəfindən yazılıb. Həmin vaxtdan bəri oyunun qaydaları eyni üsulla oynanılır. Fiqurlarda edilən dəyişikliklər də bu tarixə düşüb. Şahmat üzrə ilk dünya çempionatı 1886-cı ildə Vilhelm Steinitz və Johannes Zukertort arasında olmuşdu. Oyunun qalibi olan V.Steinitzin istifadə etdiyi üsullar günümüzdə də tətbiq edilir. 1924-cü ildə isə Beynəlxalq Şahmat Federasiyası yaradılıb. Oyunun geniş miqyaslılığı bacarıqlı şahmatçıların sayını artırmış və adlarının tarixə həkk olunmasına səbəb olmuşdu.

Əslində, şahmat bir həyat oyunudur. Bu oyunla zamana qarşı yarışmaq, zamanı, stressi idarə etmək, təzyiq altında doğru qərar vermək, sonrakı həmləni hesablamaq kimi nüanslarla həyatda da mübarizə aparırıq. Şahmatın digər faydalarından biri isə sağlamlığa müsbət təsiridir. Oyun zamanı bütün beyin hüceyrələri aktiv olub işlədildiyi üçün gələcək vaxtlarda baş verə biləcək yaddaş pozğunluğu, alzheymer kimi xəstəliklərin qarşısını ala bilir.

# Cəzbedici qoxularla tanışlıq

**Ətir imici ifadə edən, qarşı tərəfə müsbət enerjinin ötürülməsində rol oynayan güclü vasitədir. Əvəzedilməz qoxuları ilə valehedicilik yaradan ətirlərin yaşamımıza daxil olması Mesopotamiyadan başlayıb. Hazırlanan ilk nümunə təxminən 4000 il əvvəl ərsəyə gətirilmiş buxur idi. Bu vasitə yandırıldıqda ətrafa qoxu saçılırdı.**



Mesopotamiyalılar kimi, qədim misirlilər də dini mərasimlər zamanı efir yağları, qatranlar və ətirli məlhəmlər yandırırdılar. Bununla da qoxularla ölülərə mesaj və duaların çatdığına, ruhların təmizləndiyinə inanırdılar. Zaman keçdikcə qoxulardan yalnız müqəddəslik üçün deyil, gündəlik gigiyenik vasitə kimi də istifadə olunmağa başlandı. Bu anlayışın formalaşması xalqlar arasında ətirlərin, qatranların ticarətinin geniş vüsət almasına səbəb oldu. Ərəb filosofu əl-Kindinin ətirlər haqqında kitabında ətirli yağlar, məlhəmlər, aromatik suların hazırlanması üçün yüzdən çox resept yer alır. Kimyaçı-həkim İbn Sina isə bu gün ən çox istifadə edilən distilə yolu ilə çiçəklərdən yağların çıxarılması prosesini təqdim edib.

Parfüm sözü latın dilində “per” və “fumus” sözlərinin tərcüməsi olan tüstülü qarışım mənasını ifadə edir. Ətirlər XVII əsrdə xüsusilə Fransada böyük uğur qazandı. O dövrlərdə bədəndən gələn xoşagəlməz qoxuları gizlətmək üçün ətirlər iyə qarşı ən yaxşı çıxış yolu idi. İngiltərədə isə qoxulardan kraliça I Elizabetin dövründə geniş istifadə olunurdu. Onun hakimiyyətdə olduğu vaxtlarda ictimai yerlərə müxtəlif ətirlər səpilirdi. Buna səbəb onun pis qoxulara dözümünün olmaması idi.

Əsasən kişilərin istifadə etdiyi odekolon adlanan ətirli sular XVIII əsrin əvvəllərində Almaniyanın Köln şəhərində italyan bərbəri tərəfindən icad edilib. Odekolonun tərcüməsi də məhz fransızcadan “eu de Cologne” Köln şəhərinin suyu anlamını ifadə edir. Bu ətir “möcüzəvi dərman” kimi böyük marağa səbəb olmuşdu. Həmçinin Napoleon tərəfindən yüksək qiymətləndirilmiş, ilk odekolon mağazasının yerləşdiyi ünvanın nömrəsi ilə “4711” adlandırılaraq satılırdı.

Sənayedə olduğu kimi, ətriyyat da XIX əsrdə köklü dəyişikliklərə məruz qaldı. Zövqlərin dəyişməsi, ən əsası kimyanın inkişafı müasir parfümeriyanın əsasını qoydu. Əsrin əvvəllərində qoxular adətən tək çiçəkdən əldə olunaraq hazırlanırdı. Ətirlərin baha olması ona görədir ki, cəmi bir kilo efir yağı əldə etmək üçün minlərlə kilo çiçək lazım olur. Bu da bir çox ətirlərin nəyə görə qiymət bahalığını aydınlaşdırır. Daha sonra efir yağları spirtlə seyrəldilir, xüsusi mis və ya polad qablara tökülərək soyudulur, filtrdən keçirilmiş məhlul qablaşdırılaraq satış üçün hazır vəziyyətə gətirilir.

Hazırda parfümeriyada həm sintetik, həm də təbii maddələrdən istifadə olunur. Təbii komponentlərə çiçəklərin, yarpaqların, köklərin və sitrus meyvələrinin ekstraktları daxildir. Müşk, balina, qunduzdan alınan heyvan ekstraktlarından da istifadə olunur. Tarixdə müasir kimyəvi maddələr üsulunun tətbiq edilərək hazırlandığı ilk ətir isə “Chanel No5”dir.

İnsanlar bəzən ətirlərdən yalnız xoş qoxunun hiss edilməsi üçün deyil, həm də stresi azaltmaq, enerji vermək və ya sadəcə əhvali-ruhiyyələrini yüksəltmək ümidi ilə istifadə edirlər. Qoxunun digər bir sirri isə keçmişi canlı şəkildə geri qaytarmaq qabiliyyətinə malik olmasıdır. Reseptorların beyinə ötürülməsi hər hansı bir hissin və ya çoxdan baş vermiş hadisənin xatırlanmasına səbəb ola bilər.

***Aydan XƏLİLOVA, “Azərbaycan”***




# “Tesla” uşaqları da unutmur



**ABŞ-ın “Tesla” şirkəti 2019-cu ildə “Cybertruck” pikapı ilə birlikdə “Cyberquad” adlı dördtəkərli motosikl təqdim etmişdi. Bu günlərdə şirkət onun uşaqlar üçün nəzərdə tutulmuş versiyasının istehsalına başlayacaq.**

Bu motosikl “Cyberquad for Kids” adlanır. Motosikl saatda 16 km sürətlə hərəkət edə və bir dəfə şarj olunandan sonra 24 kilometr yol qət edə bilir. Nəqliyyat növünün çəkisi 55 kiloqramdır. “Cyberquad for Kids” 68 kiloqramadək də yük daşıya bilir. Səkkiz və daha yuxarı yaşlı uşaqlar üçün nəzərdə tutulan nəqliyyat növü məişətdəki elektrik şəbəkəsi vasitəsilə şarj olunur. Enerjini tam yığmaq üçün ona 5 saat vaxt lazım gəlir. Qeyd etmək lazımdır ki, “Cyberquad for Kids” satışda hissələr şəklində təqdim olunacaq. Buna görə də alıcı onu fərdi şəkildə yığmalı olacaq.

Dördtəkərli motosiklin gövdəsi poladdan hazırlanıb. “Tesla”nın rəsmi saytından onu 1900 ABŞ dollarına sifariş etmək mümkündür. Sifarişdən sonra alıcı motosikli 2-4 həftə ərzində əldə edəcək.

# 5G smartfonlar üçün yeni prosessorlar hazırlanır

**“Huawei” şirkəti yaxın gələcəkdə yeni fərdi prosessorlarını istehsal edəcək. Qeyd edək ki, ABŞ-ın sərt sanksiyaları səbəbilə şirkətin smartfon biznesi böyük zərər görüb.**

Nəticədə şirkət dünyanın ən böyük smartfon istehsalçıları reytinqindəki ilk beşlikdən çıxıb. Üstəlik, “Honor” brendini fərdi struktura çevirməyə məcbur olub. “Huawei”in Avropadakı istehlakçı şöbəsinin rəhbəri Derek Yunun sözlərinə görə, “Huawei” yaxın gələcəkdə əsas diqqətini flaqman smartfonların istehsalına yönəldəcək. Həmin flaqman smartfonlar “Mate” və “P” seriyalarına daxil olacaq. Bundan əlavə, şirkət elastik ekrana malik cihazların istehsalına da diqqət ayıracaq.

“Huawei” şirkətinin Şanxayda yerləşən tədqiqat mərkəzi hazırda 5G dəstəkli smartfonlar üçün nəzərdə tutulmuş yeni prosessorların layihələşdirilməsi ilə də məşğuldur. Qeyd etmək lazımdır ki, mövcud sanksiyalar




səbəbilə o, 5G dəstəkli mobil prosessorlardan istifadə edə bilmir. Lakin onun yeni fərdi mobil prosessorları bu problemi aradan qaldıracaq.

Məlumatda qeyd edilir ki, “Mate 50” smartfon seriyası 2022-ci ildə təqdim ediləcək. Şirkət Avropa bazarında öz məhsullarını “HarmonyOS” əməliyyat sistemi ilə birlikdə təklif etməyi planlaşdırır.

# Ayda evlər



**Avropa Kosmik Agentliyi (ESA) Ayda tikiləcək evlərin fotolarını paylaşıb. İlk astronavt mənzilinin şəkilləri görənləri heyrətləndirir. Astronavtların Ayın kəşf edilməyən hissələrini araşdırması üçün Yerin peykində evlər tikilməlidir. Bu çərçivədə ESA-nın paylaşdığı şəkillər ilk baxışda fantastik filmləri xatırladır.**

Daha əvvəldən NASA 2024-cü ilədək Aya bir kişi və bir qadın olmaqla iki astronavt göndərəcəyini açıqlamışdı. NASA “Artemis” adı verilən kosmik missiyaya uyğun hesab etdiyi 18 astronavtın adlarını da açıqlamışdı. “Artemis” kosmik missiyasının bir hissəsi Ayda daimi bir koloniya da yaratmalıdır.

Yerin peykində qurulacaq koloniyada mühəndislərin kraterlərdə olan buzlaqlardan su çıxarmaq kimi aydakı qaynaqlardan necə istifadə ediləcəyini öyrənmələri planlaşdırılır.

Avropa Kosmik Agentliyinin məsləhətçisi Aidan Kouley açıqlamasında “Əgər həqiqətən Ayın, Marsın və ya başqa bir planetin kəşf edilməsi məsələsinə ciddi yanaşırıqsa, deməli, bu, tezliklə mənimsəməyimiz vacib olan bir texnologiyadır”,- deyə qeyd edib. Kouleyin dediyinə görə, astronavtların yaşaya biləcəyi silindrik evlərin inşasına yaxın 10 il ərzində başlanacaq. Ancaq sözügedən tikililərin radiasiyaya davamlı olması çox vacibdir.

Missiya Ayın əvvəllər kəşf edilməmiş bölgələrini araşdırmaq və digər astronavtların gələcəkdə Marsa gedə biləcəyi bir bazanı qurmaq məqsədini daşıyır.

# Ən kiçik yeni HD kamera

**Prinston və Vaşinqton universitetlərinin alimləri duz dənəciyi ölçüsündə kamera yaradıblar. Bu cür kiçik ölçüyə malik kamera keyfiyyətli rəngli fotolar çəkə bilir. Kamera dairəvi qravüranı xatırladan şəffaf panel şəklindədir. 0.5 millimetrlik diametrə sahib dairəvi qravür özündə 1.6 milyon ədəd silindri birləşdirir. Hər bir silindr unikal formadadır və optik anten kimi çalışır.**



Sözügedən silindrlər birlikdə optik dalğa effektini yaradırlar. Daha sonra isə sistem süni zəka alqoritmi sayəsində təsvir yaradır. Nəticədə mövcud olan kiçikölçülü kameraların çəkdikləri fotolardan daha keyfiyyətli foto alınıb. Test zamanı mütəxəssislər 720x720 piksel keyfiyyətində olan tam rəngli foto əldə edə biliblər.

Silisium nitritdən hazırlanan bu kameranın əsas üstünlüyü istehsalının asan başa gəlməsidir. Onların konstruksiyalarında istifadə olunan nanostrukturlar isə “DUV” litoqrafiyası vasitəsilə əldə edilir. Praktiki cəhətdən bu cür kameralar təkcə tibdə deyil, digər sahələrdə də istifadə edilə bilər. Alimlərin sözlərinə görə, istənilən səthi bu kameralar ilə təchiz etmək mümkündür. Bu halda smartfonlar üçün 2 və ya 3 kamera lazım olmayacaq. Belə ki, bu cür kameralar smartfonun arxa panelinə quraşdırılaraq böyük bir kamera funksiyasını yerinə yetirə biləcək.

# Ayaq üstə telefondan istifadənin zərərləri

**Araşdırmalar göstərir ki, ayaq üstə bir əlimizdə telefon tutduqda bədənimiz sanki boynumuzda 6 yaşlı uşağın ağırlığını hiss edir və bu zaman üzərimizə düşən təzyiq 27 kiloqrama bərabər olur. Amerikanın Nyu York şəhərində yerləşən tibbi bərpa klinikasının mütəxəssisləri başımızı əyərək mobil telefona baxdığımız zaman bədəndə nələr baş verdiyinin virtual modelini hazırlayıblar.**



Beləliklə, boynumuzu bir az irəli verərək başıaşağı əydiyimiz zaman boyun fəqərələrinə elə təzyiq edirik ki, bu hal 2-4 saat davam etsə, onun fəsadlarını düşünmək belə çətindir.

Düzgün qamət qulaqların çiyinlərlə eyni zolaqda olduğu duruşdur. Bu vəziyyət stressi azaldır və kortizolun səviyyəsini aşağı salır. Qeyri-düzgün duruş forması bədənin vaxtından əvvəl sıradan çıxmasına və amortizasiyasına (dəyərlərini itirməsinə) yol açmaqla yanaşı, xroniki depressiyaya və halsızlığa səbəb olur.

Problemin qarşısını almaq üçün başımızı əyməməliyik. Mesaj yazarkən telefonu 30 dərəcə bucaq altında elə tutmağa çalışmalıyıq ki, onun küncü biləklərimizi qorusun. Bu zaman boyun çiyinlərlə eyni səviyyədə qalmalıdır.

# “Vatsap”ın yenilikləri

**“Vatsap”ın yeni təqdim etdiyi funksiya istifadəçiyə mövcud olan şəkillərdən stikerlər yaratmaq imkanı verir. Hazırda istifadəçilər yalnız PC versiyası ilə stikerlər yarada və əlavə edə bilərlər. Yeniliyin əvvəlcə “Android” əməliyyat sisteminin istifadəçiləri, sonra isə “iPhone” sahibləri üçün əlçatan olacağı gözlənilir. Qeyd edək ki, bu funksiya “Teleqram” mesencerində artıq mövcuddur. “Teleqram”dan fərqli olaraq, “Vatsap”da şəkli fondan ayırmağa, kəsməyə və ya çevirməyə imkan verən tamhüquqlu redaktor olacaq.**




“Vatsap” milyonlarla aktiv istifadəçisi ilə ən populyar tətbiqlərdən biri olmağa davam edərkən artıq bu platformadan istifadə edə bilməyən telefon modelləri açıqlanıb. Bu modellər üçün yeniləmə dəstəyi noyabrın 1-dən dayandırılıb. “Apple” yeniləmə prosesində istifadəçilərinə ən çox yardım edən şirkətlərdən biri olsa da, bu məsələdə dəstəyini köhnə telefonlarından çəkib. “iPhone 5” seriyası üçün yeniləmə illər əvvəl dayandırılıb. Noyabrın 1-dən etibarən isə “Samsung”, “LG”, “Lenovo”, “HTC” və “Sony” kimi şirkətlərin bəzi modelləri “Vatsap”dan istifadə edə bilmirlər.

“Vatsap”da həmçinin ismarışların silinməsi ilə bağlı yeni funksiya tətbiq olunur. Bundan sonra ismarışlar istifadəçinin təyin etdiyi müddət ərzində avtomatik silinəcək. Xüsusi komanda ilə işə salınacaq funksiya ismarışları 24 saat, 1 həftə, yaxud 90 gündən sonra silir. Bunun üçün “Android” və ya “iOS” ilə çalışan telefonlarda funksiyanı açmaq və yaxud söndürmək üçün “Parametrlər”, sonra şəxsi hesabdan “Məxfilik” bölməsinə, oradan da “Silinən ismarışlar” bölməsinə daxil olmaq gərəkdir.

# Robotun yeni məharətləri



**İnsana bənzəyən robotlar bazarda artıq yeni bir ixtira sayılmır. Məsələn, məşhur “Boston Dynamics” şirkəti özünün “Atlas” adlı 2 ayaqlı robotuna rəqs etməyi, həmçinin akrobatik hərəkətləri icra etməyi öyrədib. Böyük Britaniyanın “Engineered Arts” adlı şirkəti isə öz robotunun yaradılması zamanı əsas diqqəti onun insana daha çox bənzəməsinə ayırıb.**

“Ameca” adlı robot müxtəlif emosiyaları daha real şəkildə təqdim etməsi və digər robotlarla müqayisədə hərəkətləri daha təbii reallaşdırması ilə fərqlənir. Bu robot mexaniki detallar şəklində hazırlanmasına və üzərində az miqdarda süni dərinin olmasına baxmayaraq, müxtəlif mimika özəllikləri və daha yüksək hamarlılığa sahib hərəkətləri hesabına çox real görünür. Şirkət tərəfindən təqdim edilmiş qısa videoda robot təəccüblü şəkildə ətrafa baxır, öz əllərini izləyir və ifadəli şəkildə operatora nəzər salır. Mütəxəssislər bildirirlər ki, “Ameca” süni zəka funksiyalarına malik deyil və faktiki olaraq metal gövdə daxilində olan “chat-bot”u xatırladır. İstifadəçilər ondan bir növ messencer kimi istifadə edərək uzaqdan ünsiyyət qura bilərlər.

***Ülkər XASPOLADOVA, “Azərbaycan”***

Azercell

## korporativ abunəçilərinin nəzərinə

18.01.2022-ci il tarixdən etibarən "Azercell Telekom" MMC-nin fakturalı xətt sistemində "Gigamax" kampaniya çərçivəsində korporativ abunəçilərə təqdim edilən "Gigamax", "Gigamax+" və "Gigamax pro" internet paketlərdə müvafiq olaraq 14,90 manat, 24,90 manat və 49,90 manat aylıq abunə haqqı tətbiq ediləcək.

**Qeyd: Abunəçilər göstərilən dəyişikliklər, müvafiq paketlərin şərtləri, sifarişi, başqası ilə əvəzetmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.**

# Almaniyanın aviadaşıyıcısı "Lufthansa" şirkəti Bakıya birbaşa reysləri bərpa edib




Heydər Əliyev Beynəlxalq Aeroportunun Mətbuat xidmətinin verdiyi məlumata görə, uzun fasilədən sonra "Lufthansa" aviaşirkəti Bakıya birbaşa müntəzəm reyslərini bərpa edib.

Bu ilin yayınadək reyslər Tbilisi Hava Limanında qısamüddətli dayanmaqla yerinə yetirilirdi. Noyabr ayından başlayaraq aviaşirkət yenidən Bakıdan Frankfurta və geriyə birbaşa müntəzəm reyslər təklif edir. Aviaşirkət öz sərnişinlərinə həftədə 4 reys təklif edir - bazar ertəsi, çərşənbə, cümə və şənbə günləri Bakıdan uçuş saat 04:45-də və çərşənbə axşamı, cümə axşamı, cümə və bazar günləri Bakıya gəliş saat 21:30-da həyata keçiriləcək.

Təyyarə tipi - Airbus A320, iki xidmət sinfi mövcuddur: biznes və ekonom siniflər.

"Biz, "LufthansaGroup" aviaşirkətləri uçuşlarımızın coğrafiyasını tədricən genişləndiririk və Azərbaycandan olan müştərilərimizə yenidən Bakıdan Frankfurta və daha sonra bütün dünyaya birbaşa müntəzəm reysləri təklif etməyə şadıq. Biz həmçinin Bakı-Frankfurt marşrutunun gələcək inkişafına nikbin baxır və müştərilərimizi hava gəmilərimizdə yenidən salamlamaq imkanını səbirsizliklə gözləyirik," - deyə "LufthansaGroup"un Ukrayna, Belarus, Türkmənistan və Cənubi Qafqaz üzrə baş direktoru Karsten Sanq vurğulayıb.

"COVID-19 pandemiyasının başlanmasınadək Avropanın ən böyük qovşaqlarından biri olan Frankfurta birbaşa müntəzəm reyslər yerinə yetirən "Lufthansa" aviaşirkəti bizim çoxillik tərəfdaşımızdır. Biz şadıq ki, istər Azərbaycanda, istərsə də Almaniyada uğurlu peyvəndləmə proqramları sayəsində və karantin məhdudiyyətlərinin tədricən yumşalması nəticəsində sərnişinlərə tələb olunan bu istiqaməti yenidən təqdim edə biləcəyik", - deyə Heydər Əliyev Beynəlxalq Aeroportunun direktoru Teymur Həsənov bildirib.

# "Sərhədçilərin dostu" mövzusunda növbəti kinoloji yarışlar keçirilib









Dövlət Sərhəd Xidmətinin (DSX) Heyvan Təlimatçılarının Hazırlığı Mərkəzində DSX-nin hərbi hissələri arasında xidməti it təlimatçıları və bələdçilərinin "Sərhədçilərin dostu" mövzusunda növbəti kinoloji yarışlar keçirilib.

DSX-nin Mətbuat mərkəzindən bildiriblər ki, narkotik vasitələrin axtarışı və iz axtarışı üzrə iki istiqamətdə keçirilmiş yarışların məqsədi xidməti it təlimatçıları və bələdçilərinin peşəkar hazırlığının inkişaf etdirilməsi, dövlət sərhədinin mühafizəsində xidməti itlərlə sərhəd pozucularının axtarışı və yaxalanması, sərhəd nəzarəti məntəqələrində narkotik vasitələrin axtarışı bacarıqlarının təkmilləşdirilməsi, həmçinin ən yaxşı praktiki vərdişlərə malik kinoloq-mütəxəssislərin və yüksək iş qabiliyyəti olan xidməti itlərin müəyyənləşdirilməsi olub.

Yarışlarda xüsusi təlim keçmiş xidməti itlərlə nəqliyyat vasitələrində, əl çantalarında narkotik vasitələrin axtarışı və sərhəd pozucusunun izlərlə təqib olunaraq yaxalanması üzrə tapşırıqlar yerinə yetirilib. Kinoloji yarışların qalibləri kubok və diplomlarla təltifləndiriliblər. Yarışların yekununa həsr olunmuş tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra sərhədçi kinoloq-mütəxəssislər tərəfindən xidməti itlərlə nümunəvi çıxışlar edilmişdir.

# Ermənistanda vəziyyət qarışır

*Əvvəli 1-ci səh.*

Etirazçılar qeyd ediblər ki, hakimiyyət Vardenisdəki məğlubiyyətlə barışa bilməyib və bütün imkanlarından istifadə edərək Vardenis Ağsaqqallar Şurasını ələ keçirməyə cəhd göstərib. Yerli özünüidarə orqanlarına seçkilərdə hakim "Vətəndaş müqaviləsi" partiyası 12, "Aharon Xaçatryan" bloku 10, "Birləşmiş Vardenis" isə 5 mandat əldə etsə də, son iki partiya birləşmək qərarına gəlib və bununla da Şurada çoxluq təşkil ediblər.

Etirazçılar iddia edirlər ki, buna görə "Vahid Vardenis" blokunun lideri Aram Arutyunyanı saxlayıblar. Müxalifət baş verənləri əsas götürərək etiraz aksiyalarına hazırlaşır. Onu da qeyd edək ki, müxalifətin əsas məqsədi etiraz aksiyalarını hakimiyyətə qarşı "ümumxalq üsyanı"na çevirməkdir. Hakimiyyət müxalifətin niyyətinin həyata keçməsinin qarşısını almaq, bu düşərgədən gələn təhdidlərin neytrallaşdırılmasına nail olmaq üçün inzibati metodlardan, administrativ resurslardan istifadə edir.

Radikal müxalifət təmsilçiləri ilə bağlı atılan addımlar bunun təsdiqidir. Məsələn, sabiq prezident Robert Koçaryana bağlı "Ermənistan" fraksiyasını təmsil edən deputatlardan üçü həbsə atılıb, bəzilərinin isə məhkəmə qaydasında ölkəni tərk etməsinə qadağa qoyulub. Müxalifətin maliyyə dayaqlarının sıradan çıxarılması üçün də müvafiq addımlar atılır. Bu xüsusda əsas hədəf hakimiyyətdə olarkən özlərinə böyük sərvət toplamış keçmiş cinayətkar oliqarxlardır.

Ermənistanın Baş Prokurorluğu artıq sabiq müdafiə naziri Seyran Ohanyanın, onun həyat yoldaşının əmlakına həbs qoyub. Eyni zamanda prokurorluq eks-prezident Serj Sarkisyanın qardaşı Levon Sarkisyan, onun oğlu və qızı, həmçinin eks-spiker Qalust Saakyanın oğlu Arman Saakyan, keçmiş ətraf mühit naziri Aram Arutunyan barədə araşdırma başladıb. Sabiq prezidentlər Robert Koçaryan, Serj Sarkisyan və digər keçmiş oliqarxlar haqqında da cinayət təqibi davam etdirilir.

Müxalif düşərgədə yer alan bəzi şəxslər, əsasən də keçmiş oliqarxlar törətdiyi cinayət əməllərinə görə təqibdən yayınmaq üçün ölkədə etiraz aksiyaları təşkil etməyə, bu müstəvidə qarşıdurma və iğtişaşlar törətməklə hakimiyyətə yiyələnməyə çalışırlar. Hazırda Ermənistanda baş verənlər yeni daxili qarşıdurmanın, hətta vətəndaş müharibəsinin başlanmasını istisna etmir. Belə olan halda Ermənistan yenə Cənubi Qafqazda qeyri-sabitlik, xaos və təhdid mənbəyi olaraq qalmaqda davam edəcək.

Bu vəziyyətdə daha bir maraqlı məqam erməni diaspor və lobbisi ilə Ermənistan arasında yaranan ziddiyyətlərdir. Erməni lobbisinin regionda sülhə xələl gətirən fəaliyyəti artıq Ermənistanın özündə də tənqid hədəfidir. Erməni politoloq Ruben Meqrabyanın Rusiyadakı erməni lobbisinə xitabən səsləndirdiyi fikirlər bunu təsdiq edir: "Bizə Moskvada yumşaq divanın üstündə oturub vətəni necə sevməyi öyrətməyin".

Bloqçu Roman Bağdasaryanın efirində qonaq olan politoloq 1988-ci ildən bu yana yığılan problemlər, keçmiş və indiki rəhbərliyin fəaliyyəti, orduda olan vəziyyət və sair barədə sualları cavablandırarkən lobbi ilə bağlı olduqca maraqlı məqamlara toxunub. O, 44 günlük müharibə zamanı lobbi və diasporun ordunu taladığını bildirib. Meqrabyan problemlərin kökünün əsas mənbəyi kimi erməni diasporunu göstərib. O, Ermənistanda yaşamayan, vergi ödəməyən, uzaq ölkələrdən hökuməti idarə etmək istəyən, xalqı öz yalanları ilə aldadan lobbistləri günahlandırıb: "Əgər Ermənistanda yaşamırsansa, vergi ödəmirsənsə, hərbi vəzifən yoxdursa, sənin nəyinə lazımdır hökuməti kim idarə edir, necə idarə edir, yaxşı hökumətdir, pis hökumətdir, baş nazir kimdir, düz işləyir, ya yox, sənin nəyinə lazımdır? Faydalı olmaq istəyirsən, ol, yararlı olmağı bacarırsan, ol, amma bizə mane olmayın, icazə verin, problemlərimizi özümüz həll edək, kim yaxşıdır, kim pisdir, kim düzdür, kim düz deyil, biz bilirik. Onsuz da burada heç kim müqəddəs deyil, indiki hökumət bəzi şeylərdə düzgündür, bəzilərində yox... Biz hələ çox şeyi yoluna qoymalı, qaydasına salmalıyıq, bəzi şeyləri birdəfəlik silib atmalıyıq. Çox səhvləri düzəltmək, çox şeyi yenidən başlamalıyıq. Əgər kömək edə bilirsinizsə, edin, buyurun, yox, kömək edə bilmirsinizsə, əl çəkin bizdən, bizi sakit buraxın, özümüz həll yolunu taparıq. Sizin məsləhətinizə ehtiyacımız olsa, soruşarıq. Moskvada yumşaq divanda oturub bizə vətəni necə sevməyi öyrətmək lazım deyil".

Roman Baqdasaryan da erməni lobbistlərinə qəzəbini saxlaya bilməyərək onlara səslənib: "Siz bilirsinizmi ki, divanda oturub erməni ordusunu və indiki hökuməti tənqid etməklə ordunun ruh yüksəkliyini aşağı salırsınız. Rusiyada, Ukraynada, Moldovada oturub kabab çəkib, konyak içirsiniz, fikirləşirsinizmi ki, postlarda əsgərlərimiz gecə-gündüz keşik çəkir. Kömək etmək əvəzinə, hökuməti daş-qalaq edirsiniz. Açıq deyin ki, qorxursunuz, qoy hamı eşitsin, qorxduğunuzu boynunuza alın".

Beləliklə, həm diasporla ziddiyyət, həm də daxili qarşıdurma Ermənistanda xaos və anarxiyanı daha da dərinləşdirir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən 09 dekabr 2021-ci il tarixdə keçirilmiş "Əhali arasında məişət zorakılığından müdafiə vasitələrinə etimadın təşviqi (kreativ çarx)" adlı təkrar müsabiqənin qalibi "İnformasiya Təşəbbüslərinə Dəstək" İctimai Birliyi, "Narkomaniyaya qarşı mübarizədə təbliğat kampaniyasının təşkili" adlı təkrar müsabiqənin qalibləri "Karvan" Gənclərin İnkişafına Dəstək İctimai Birliyi və "Vətəndaş Cəmiyyətinin Regionlarda İnkişafına Dəstək" İctimai Birliyi, "Əlilliyi olan şəxslərin asudə vaxtının davamlı təşkili məqsədilə təşəbbüslərin həyata keçirilməsi" adlı təkrar müsabiqənin qalibi "İnkişafa Doğru" Regionların Soisal-İqtisadi İnkişafına Dəstək İctimai Birliyi, "Sağlamlıq imkanları məhdud uşaqların inkişafının təmin olunması və monitorinqi sahəsində innovativ təşəbbüslərin həyata keçirilməsi" adlı müsabiqənin qalibi "Regionların Sosial İqtisadi İnkişafına Dəstək" İctimai Birliyi olmuşdur.

"Şəhid ailəsinə cəmiyyətdə xüsusi diqqətin təbliği (tanıtım)" adlı təkrar və "Görmə üzrə əlilliyin qarşısının alınmasına yönəldilmiş maarifləndirici tədbirlər" adlı müsabiqələr baş tutmamış hesab edilmişdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Dövlət Sosial Müdafiə Fondunun Aparatında və struktur bölmələrində əmək pensiyalarının, sosial müavinətlərin, sosial yardımların, eləcə də ayrı-ayrı kateqoriyalı şəxslərə Azərbaycan Respublikası Prezidenti tərəfindən təyin edilmiş təqaüdlərin və kompensasiyaların ödəniş kartları, habelə zərurət olduğu halda digər ödəniş alətləri və üsulları vasitəsi ilə nağdsız qaydada ödənilməsini həyata keçirmək məqsədilə göstəriləcək bank xidmətlərinin satın alınması məqsədilə 11.06.2021-ci il tarixdə elan edilmiş açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmiş, qiymətləndirmənin nəticəsində "Kapital Bank" ASC qalib müəyyən edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası tərəfindən 2022-ci il üçün dövri mətbuatın satın alınması məqsədilə elan olunmuş kotirovka sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 11.1-ci maddəsinə uyğun olaraq təklif vermiş iddiaçıların sayı üçdən az olduğu səbəbindən ləğv edilir.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu Aparat və Mərkəzi filiallarda COVID-19 xəstəliyinə səbəb olan virusun müəyyənləşdirilməsi məqsədilə test müayinələrinin keçirilməsi üzrə işlərin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

*Maraqlanan təşkilatlar (+994)12530-29-03 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.*

*Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 24.12.2021-ci il saat 16:00-dək qəbul olunur.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Dövlət Sosial Müdafiə Fondunun Aparatında və struktur bölmələrində əməkhaqlarının və əmək pensiyalarının, sosial müavinətlərin, sosial yardımların, eləcə də ayrı-ayrı kateqoriyalı şəxslərə Azərbaycan Respublikası Prezidenti tərəfindən təyin edilmiş təqaüdlərin və kompensasiyaların ödəniş kartları, habelə zərurət olduğu halda digər ödəniş alətləri və üsulları vasitəsi ilə nağdsız qaydada ödənilməsini həyata keçirmək məqsədilə göstəriləcək bank xidmətlərinin satın alınması məqsədilə 10.06.2021-ci il tarixdə elan edilmiş açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmiş, qiymətləndirmənin nəticəsində "Azərbaycan Beynəlxalq Bankı" ASC qalib müəyyən edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Rəşad Cəfərliyə əmisi

**ARZUMAN CƏFƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun kollektivi Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin dəftərxana sektorunun baş məsləhətçisi Yeganə Nağıyevaya anası

**KÜBRA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan
AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az



Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5586
Sifariş 2561
Qiyməti 40 qəpik